Məqalədə Azərbaycan və bütövlükdə türk dillərinin qrammatik sistemində əsas nitq hissələrindən biri kimi sabitləşmiş zərf haqqında sistemli məlumat verilir. Tədqiqatdan məlum olur ki, zərf qrupu türkoloji dilçilikdə kifayət qədər araşdırma obyektinə çevrilsə də başqa nitq hissələrinə mənsub leksik vahidlərdən obrazlı şəkildə desək, tam təmizlənməmişdir. Bunun başlıca səbəbi ilk növbədə zərfin sərhədlərinin müəyyənləşdirilməsində nitq hissələrinin təsnifində istifadə edilən prinsiplərin düzgün seçilməməsidir. Belə ki, digər əsas nitq hissələrinin bölgüsündə leksik-semantik və morfoloji prinsiplər əsas götürüldüyü halda, zərfin təsnifatında meyar olaraq dilçilikdə köməkçi funksiya daşıyan sintaktik prinsipdən istifadə edilmişdir. Qeyri-adekvat yanaşma zərflə yanaşı, onun lüğəvi məna növlərinin də şərhində fikir müxtəlifliyinə səbəb olmuşdur. Nəticədə bəzi tədqiqat əsərlərində zərfin tərzi-hərəkət, zaman, yer, miqdar, səbəb və məqsəd zərflərindən ibarət beş məna növü, bəzilərində isə tərz, zaman, yer və miqdar zərflərini əhatə edən dörd növü qeyd edilir. Hətta türk dillərində zərfin məna növlərinin sayı bəzən yeddiyə çatdırılır. Araşdırma prosesində bu sahədə müşahidə olunan ziddiyyətlərin və fikir dolaşıqlığının aradan qaldırılmasına nail olmaq üçün türk dillərinin qrammatik quruluşunun təbiətinə uyğun olaraq zərfin təsnifatında digər əsas nitq hissələrində olduğu kimi, leksik-semantik və morfoloji prinsiplərin tətbiqinin zəruri olduğu diqqətə çatdırılır. Qeyd olunan prinsiplər əsasında yaxşı, pis, gözəl sifətlərinin; az, çox, xeyli saylarının əslində zərf olmadığı, sadəcə, hərəkət məzmunlu sözlərin qrammatik mənalarının aydınlaşdırılmasına xidmət edərkən adverbiallıq qazandığı dil materialları və faktlarla əsaslandırılır; mülahizə bir söz (əgər omonim deyilsə) bərabərdir bir nitq hissəsi prinsipi ilə izah edilir. Məqalədə, həmçinin, göstərilən prinsipin tətbiqi əsasında zərfin lüğəvi məna növlərinin məzmununa da aydınlıq gətirilir. Təhlillərdən məlum olur ki, miqdar anlayışı tarixən zəruri tələbat əsasında hərəkətin deyil, əşya məzmunlu məvhumların sayını, çəkisini, miqdarını aydınlaşdırmaq məqsədilə yaradıldığı üçün zərf adlandırılması absurddur. Miqdarla müqayisədə dərəcə geniş anlayışdır. O, semantik tutumunun genişliyinə görə həm əşya, həm də hərəkət məzmunlu sözlərə aid ola bilir. Bunlar əsas götürülərək miqdar zərfləri adı altında verilən söz qrupunun dərəcə zərfləri adlandırılması daha məntiqli hesab edilir. Səbəb və məqsəd zərflərinə gəlincə morfoloji göstəricilərinə görə onlar dildə hələ zərfin məna növləri kimi təşəkkül tapmamışdır. Tədqiqat prosesində qeyd olunan faktlar əsasında zərf qrupuna daxil olan sözlər əvvəlki təsnifatlardan fərqli olaraq tərz, zaman, yer və dərəcə növləri üzrə qruplaşdırılır.

***Açar sözlər**: zaman, zərf, adverbiallaşma, substantivləşmə, atributivləşmə*

ADVERB IN MODERN TURKIC LANGUAGES

Elshad Abishov
PhD in Philology, Ass. Professor
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan
elsad_abisov@mail.ru
Orcid: 0000-0002-5048-1872

Summary

The article deals with systematic information about adverbs which have been established as one of the main parts of speech in the grammatical system of the Azerbaijani and Turkic languagesmore broadly.

The study reveals that although the adverb category has become a subject of considerable research in Turkological linguistics, it has not been completely distinguished from lexical units which belong to the other parts of speech. The main reason for this issue lies in the incorrect application of the principle used for analyzing parts of speech when determining the boundaries of adverbs. While the classification of other main parts of speech is based on lexical-semantic and morphological principles, the classification of adverbs have relied on the syntactic principle which plays an auxiliary role in linguistics. The incorrect selection of criteria has led to differences in interpretations not only of adverbs themselves but also of their semantic subcategories. As a result some studies classify adverbs into five semantic categories: manner, time, place, quantity, cause and purpose, whereas others recognize only four categories: manner, time, place and quantity. In some Turkic languages, the number of semantic categories of adverbs is even extended to seven categories. During the research process, it is emphasized that in order to eliminate the contradictions and ambiguities in this field, it is necessary to apply lexical-semantic and morphological principles to the classification of adverbs, just as in the classification of other main parts of speech, in accordance with the nature of the grammatical structure of Turkic languages. Based on the mentioned principles, it is substantiated with linguistic material and facts that the adjectives *good, bad, beautiful* and the quantifiers *few, many, considerable* are not actually adverbs but only acquire adverbiality when they serve to clarify the grammatical meanings of action-based words. This argument is explained by the principle that "one word (if it is not a homonym) equals one part of speech." The article also clarifies the content of the semantic categories of adverbs by applying the same principle. The analysis reveals that the concept of quantity historically emerged out of a fundamental need to specify the number, weight or amount of noun-based notions rather than actions; therefore, considering it an adverb is illogical. Comparing to quantity degree is a broader concept. Due to its wide semantic scope it can be applied to both noun-based and action-based words. Based on this it is deemed more logical to refer to the group of words categorized as quantity adverbs under the name of degree adverbs. Regarding cause and purpose adverbs their morphological indicators suggest that they have not fully developed semantic categories of adverbs in the language. Based on these observations, the words classifying as adverbs are grouped differently from previous classifications into four categories: manner, time, place, and degree.

***Keywords**: time, adverb, adverbialization, substantivization, attribution*

НАРЕЧИЕ В СОВРЕМЕННЫХ ТЮРКСКИХ ЯЗЫКАХ

Эльшад Абышов
Кандидат филологических наук, доцент
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан
elsad_abisov@mail.ru
Orcid: 0000-0002-5048-1872

Резюме

В статье представлена систематическая информация о наречии, которое закрепилось как одна из основных частей речи в грамматической системе азербайджанского и в целом тюркских языков. Исследование показывает, что хотя группа наречий стала предметом достаточно активного изучения в тюркологической лингвистике, она образно говоря, не была полностью очищена от лексических единиц, принадлежащих к другим частям речи. Основная причина этого заключается в неправильном применении принципа, используемого при анализе частей речи, при определении границ наречия. Так если при классификации других основных частей речи в качестве основного критерия используются лексико-семантический и морфологический принципы, то при классификации наречий в лингвистике применяется синтаксический принцип, который носит вспомогательный характер. Неправильный выбор критерия привел к разногласиям не только в определении наречий, но и в трактовке их лексических значений. В результате в некоторых исследованиях выделяются пять семантических категорий наречий: образа действия, времени, места, количества, причины и цели, а в других — четыре: образа действия, времени, места и количества. В некоторых тюркских языках

число семантических категорий наречий доходит до семи. В процессе исследования подчеркивается необходимость применения лексико-семантического и морфологического принципов при классификации наречий, как и в случае с другими основными частями речи в соответствии с природой грамматического строя тюркских языков, с целью устранения противоречий и неясностей в данной области. На основе указанных принципов доказывается с помощью языкового материала и фактов, что прилагательные *хороший, плохой, красивый* и числительные *мало, много, значительно* на самом деле не являются наречиями, а лишь приобретают адвербиальность, когда служат для уточнения грамматического значения слов с глагольным значением. Данный тезис объясняется принципом «одно слово (если оно не является омонимом) равно одной части речи». В статье также уточняется содержание лексико-семантических категорий наречий с применением того же принципа. Анализ показывает, что понятие количества исторически возникло для определения числа, веса и величины предметно-содержательных понятий, а не действий, в связи с чем его отнесение к наречиям является нелогичным. В сравнении с количеством степень является более широким понятием. Благодаря своему семантическому охвату оно может относиться как к предметным, так и к глагольным словам. Исходя из этого, более логичным считается обозначение группы слов, ранее относимых к наречиям количества, как наречий степени. Что касается наречий причины и цели, то по своим морфологическим показателям они еще не сформировались как семантические категории наречий в языке. На основе данных наблюдений слова относящиеся к группе наречий, классифицируются по-новому по сравнению с предыдущими классификациями и делятся на четыре категории: образа действия, времени, места и степени.

Ключевые слова: *время, наречие, адвербиализация, субстантивация, атрибутизация*

Aktuallıq. İstər Azərbaycan, istərsə də digər türk dillərində qrammatik məzmuna və əhatə dairəsinə görə hələ də mübahisə predmeti olan zərfin fərqli prinsiplər əsasında yenidən araşdırma obyektinə çevrilməsi mövzunun aktuallığını şərtləndirən amillərdəndir.

Annotasiya. Azərbaycan və bütövlükdə türk dillərinin qrammatik sistemində əsas nitq hissələrindən biri kimi sabitləşmiş zərf haqqında ətraflı məlumat verilir. Araşdırma prosesində zərfin digər əsas nitq hissələri ilə oxşar və fərqli xüsusiyyətləri lüğəvi məna növləri mövcud elmi prinsiplər əsasında linqvistiq tədqiqata cəlb edilir.

Metod. Araşdırma prosesində təsviri və müqayisəli metodlardan istifadə edilir.

Giriş. Zərf leksik-qrammatik səciyyəsinə görə dilçilikdə ən çox mübahisə predmetinə çevrilən söz qrupudur. Bunun başlıca səbəbi zərfin çoxşaxəli olması (hərəkəti tərz, zaman, məkan, kəmiyyət baxımından izah etməsi) və semantik cəhətdən ona yaxın olan digər nitq hissələrinin zərf hesab edilməsidir.

Zərfin başqa söz qrupları ilə eyniləşdirilməsi və ya qarışdırılması bu kateqoriyadan olan söz qrupunun dilin inkişafının nisbətən sonrakı mərhələlərində tədricən formalaşması ilə bağlıdır. "İnsanlar əşya, əşyanın əlaməti, hərəkəti haqqında anlayışları dərk etdikdən çox sonra hərəkətin əlamətini dərk etməyə başlamışlar. Bu halda dildə əvvəldən yaranaraq başqa nitq hissələrinin tərkibinə daxil olan sözlər hərəkətin əlamətini bildirmək məqsədilə də istifadə edilmişdir. Bu prosesdə həmin sözlər bəzən qrammatik cəhətdən yeni forma almış, bəziləri heç bir forma dəyişikliyinə uğramadan yeni rolda çıxış etmişdir. Nəticədə həmin sözlərin bir qismi zərfləşmiş, bir qismi isə əslindən ayrılmadan həm də nitqdə zərfin rolunu oynamışdır" [1, 364], [13 .208].

Son araşdırmalarda zərf belə ortaqlı sözlərdən müəyyən qədər təmizlənsə də hələ saflaşma prosesi tam başa çatmamışdır. Bunu əsas götürən bəzi tədqiqatçılar dilçilikdə, ümumiyyətlə, zərf adlı bir nitq hissəsinin olmadığını iddia edirlər [2,165], [10,371]. Bu tip əsassız mülahizələr zərfin qrammatik sistemdəki yeri və rolunun məntiqi cəhətdən düzgün dəyərləndirilməməsindən irəli gəlir. Belə ki, hər bir nitq hissəsinin dildə varlığını şərtləndirən qrammatik xüsusiyyətlərdən əlavə, mühüm fəlsəfi amillər də mövcuddur. Məsələn, şeylər aləmi öz əksini isimlərdə, əlamət və keyfiyyət bildirənlər sifətlərdə, iş, hal, hərəkət bildirənlər feillərdə, əlaqələr– bağlayıcılarda, münasibət və şərait bildirənlər isə zərflərdə tapır. Odur ki, zərfin inkar edilməsi dolayısı ilə münasibət və şərait bildirən söz qrupunun qrammatik sistemdən kənarda qalması anlamına gəlir.

Zərfi mübahisəli söz qrupu olaraq şərtləndirən əsas amillərdən biri də digər nitq hissələri ilə müqayisədə zərfin müəyyənləşdirilməsinə fərqli meyarın tətbiq edilməsidir. İsim, sifət, say, əvəzlik və feillər nitq hissələri üzrə leksik, morfoloji və yeri gəldikcə sintaktik prinsipin köməyi ilə qruplaşdırıldıqları halda, zərfin təsnifatında yalnız köməkçi funksiya daşıyan sintaktik prinsipdən istifadə olunur.[11,228], [12,48]. Ona görə də illərdir yaxşı, pis, gözəl sifətləri və az, çox, xeyli sayları əşya məzmunu bildirən sözə – ismə (və ya isimləşmiş digər nitq hissələrinə) aid olduqda sifət və say hərəkət məzmunlu sözə – feilə aid olduqda zərf adlandırılır.

Zərflərin müəyyənləşdirilməsində sintaktik prinsipi özündə ehtiva edən həmin ənənə dilimizə rus dilçiliyinin təsiri ilə daxil olmuşdur. Yəni rus dilində də hərəkətə aid olan sözlərin əksəriyyəti zərf adlandırılır. Lakin türk dillərindən (və eləcə də, Azərbaycan dilindən) fərqli olaraq rus dilində başqa nitq hissələri, o cümlədən də, zərflərin əksəriyyəti hərəkətlə əlaqələnərkən bir çox hallarda öz formasını da dəyişərək zərfə çevrilir. Məsələn: "хороший студент", "хорошо учиться". Burada "хороший" sifəti hərəkətlə bağlandıqda öz formasını da dəyişərək "хорошо" şəklində zərfin morfoloji xüsusiyyətini kəsb etmiş və zərfə daxil olmuşdur [3, 14]. N.K.Dimitriyev rus dilində "хороший" sözünün həm də "хорошо" şəklində işlənməsini zərfin morfoloji anlayış olması ilə əlaqələndirir [4, 166]. Bu ölçü ilə Azərbaycan dilinin materiallarına yanaşmaq olmaz. "Yaxşı" sözü hər bir halda, o cümlədən də hərəkətə aid olduqda belə, öz formasını dəyişmir (başqırd dilində də якшы və якшы sözləri fərqləndirilmir). Məhz buna görə də hər bir dildə sözün bir nitq hissəsindən başqasına çevrilməsi prosesində o dilin morfoloji quruluşu nəzərdən qaçırılmamalıdır [3, 14]. Əks təqdirdə doğru elmi nəticənin əldə edilməsi imkansızdır.

Deməli, başqa nitq hissələrində olduğu kimi, zərfin sərhədlərinin müəyyənləşdirilməsində də hər hansı əcnəbi dilin deyil, Azərbaycan dilinin milli orjinallığını əks etdirən qrammatik quruluşun xüsusiyyətləri əsas götürülməlidir. Həmin xüsusiyyətlər Azərbaycan və bütövlükdə türk dillərində sözlərin nitq hissələri üzrə qruplaşdırılmasında semantik və morfoloji prinsipləri diqtə edir. N.K.Dimitriyev buna uyğun olaraq başqırd dilində, F.Zeynalov isə bütün türk dillərində nitq hissələrinin, o cümlədən də, zərfin müəyyənləşdirilməsində sözlərin semantikasının həlledici olduğunu diqqətə çatdırırlar [2, 166].

Q.Ş.Kazımov zərfin fərqləndirilməsində onlarla (N.K.Dimitriyev, F.Zeynalov), demək olar ki,eyni mövqedən çıxış edərək yazır ki, sifətlə həqiqi zərfi fərqləndirməyin bir mühüm meyarı mövcuddur: həqiqi sifətlər tələffüz zamanı özündən sonra isim (məsələn: gözəl adam, ağıllı uşaq, böyük yazıçı,uca çinar), həqiqi zərflər tələffüz zamanı özündən sonra feil (məsələn, cəld tərpənmək, yavaş yerimək, asta addımlamaq, sakit danışmaq, dinc oturmaq, sürətlə qaçmaq) tələb edir [5, 117].

Azərbaycan dilçiliyində ilk dəfə Ə.Dəmiçizadə zərfin mahiyyətcə aydınlaşdırılmasında semantik prinsipi tətbiq etməklə zərflə eyniləşdirilən sifətlərin qrammatik semantikasına aydınlıq gətirir. "Yaxşı tələbə yaxşı oxuyur" cümləsindəki "yaxşı" sözünün müxtəlif vəzifələrdə işləndiyini nəzərə alaraq isimdən ibarət olan mübtədanı müəyyənləşdirən "yaxşı" sözünü sifət, feildən ibarət olan xəbəri müəyyənləşdirən "yaxşı" sözünü isə zərf sayırlar. Lakin bu, tamamilə yanlışdır. Cümlə üzvü ilə nitq hissəsinin qarışdırılmasından başqa bir şey deyildir [3, 18].

Məlum olduğu üzrə, sifətlərlə yanaşı, isimlər də cümlədə müxtəlif vəzifələrdə işlənə bilir: məsələn; "Döymə taxta qapımı, döyərəm dəmir qapını" və ya "Oğlan gülümsəyərək qızıl dişlərini göstərdi" və s. ifadələrdəki taxta, dəmir və qızıl vahidləri əşya məzmunlu sözlərin – isimlərin (qapı, diş) əlamətini bildirsələr də isim olaraq qalırlar. Sadəcə, verilmiş cümlələrdə təyinedici funksiyada işləndikləri üçün atributivlik qazanmışlar. Və onların atributiv isim olmaları (hətta sifətin suallarına cavab versələr belə)heç kəsdə şübhə doğurmur, çünki atributivləşmə və substantivləşmə məsələləri dilçilikdə kifayət qədər aydınlaşdırıldığı üçün asan qavranılır.

Nitq hissələri mətn şəraitində işlənmə yerindən asılı olaraq atributiv və substantiv məzmun kəsb etməklə yanaşı, həm də adverbiallaşa bilirlər. Yəni öz əlamət və xüsusiyyətlərini saxlamaqla yerindən asılı olaraq müvəqqəti zərfləşə bilirlər. Substantivləşmə və atributivləşmə prosesində hər hansı nitq hissəsi öz mahiyyətindən uzaqlaşmadığı kimi, adverbiallaşarkən də obrazlı şəkildə desək,

öz kimliyini dəyişmir; düşdüyü mühitdən asılı olaraq müvəqqəti zərf funksiyasını icra edir. Bu isə nəticədə hər hansı nitq hissəsinin zərfə çevrilməsi anlamına gəlmir.

Göstərilən faktlar birmənalı olaraq təsdiq edir ki, bəzi dərslik və dərs vəsaitlərində – *az danış, bu gün çox işləmişəm, məhsuldarlıq birə-beş artıb, iclasda gözəl danışdın, yaxşı tələbə yaxşı oxuyur* cümlələrində zərfə daxil edilən gözəl, yaxşı, az, çox, birə-beş sözləri əslində zərf yox, adverbial sifət və saylardır. Onların aid olduqları isimlər (birə-beşdə numerativ söz) şifahi nitq prosesində fikrin daha lakonik ifadə edilməsi məqsədilə zamanla ixtis*ar* edilmiş *(*yəni *gözəl danışdın yox – gözəl söz danışdın, yaxşı oxuyur yox – yaxşı dərs oxuyur* və s.) və dildə bu şəkildə sabitləşmişdir.

Ümumiyyətlə, unudulmamalıdır ki, sözlərin mətn şəraitində düşdüyü mühitdən asılı olaraq müxtəlif funksiyalar (substantivləşmə, adverbiallaşma, atributivləşmə və s.) yerinə yetirməsi onların mahiyyətinin dəyişməsi, başqa nitq hissəsinə çevrilməsi demək deyildir. C.Cəfərovun təbirincə desək, bir söz (əgər omonim deyilsə) bərabərdir bir nitq hissəsi [3, 16].

Zərflə bağlı mübahisəli fikirlər yalnız mənşəyinə görə başqa nitq hissələrinə mənsub sözlərin süni surətdə zərfə daxil edilməsi ilə məhdudlaşmır. Oxşar yanaşma zərfin leksik-qrammatik məna növlərinə münasibətdə də özünü göstərir.

Tədqiqat əsərlərinin bəzilərində zərfin məna növlərinin tərzi-hərəkət, zaman, yer, miqdar, səbəb və məqsəd zərflərindən [6, 120; 7, 289], müəyyən bir qrupunda isə tərz, zaman, yer və miqdar zərflərindən ibarət olduğu diqqətə çatdırılır [5, 316].

Sonuncu bölgü Azərbaycan dilçiliyində istər elmi, istərsə də məntiqi cəhətdən daha təkmil variant olaraq qəbul olunur.

Məlumat üçün qeyd edək ki, İ.Kazımov Azərbaycan dili ilə müqayisədə digər türk dillərində zərfin məna növlərinin yeni bölgüsünü təqdim edir: təyin zərfləri, zaman zərfləri, yer zərfləri, tərz zərfləri, miqdar zərfləri, ölçü və dərəcə zərfləri, sual zərfləri, məqsəd-dərəcə zərfləri [8, 214].

İ.Kazımovdan fərqli olaraq F.Zeynalov və R.Rüstəmov türk dillərində Azərbaycan dilində olduğu kimi, zərfin məna növlərinin tərz, zaman, yer, miqdar zərflərini əhatə etdiyini göstərirlər [2, 168; 9, 155].

Zərfin məna növləri dilçilikdə kifayət qədər araşdırılsa da, burada müəyyən dəqiqləşmələrin aparılmasına ehtiyac vardır.

Tərz anlayışı hərəkətin icra tərzini, məkan və zaman hərəkətin icrasının yerini, zamanını bildirməyə xidmət etdikləri üçün tərz, zaman və yer zərflərinin zərfin məna növləri qismində çıxış etməsi bir növ təbii qanunauyğunluqdur. Lakin eyni fikri miqdar, səbəb və məqsəd zərfləri haqqında söyləmək absurddur. Ona görə ki, miqdar anlayışı tarixən iqtisadi tələbat və zərurət əsasında hərəkətin yox, əşyanın sayca kəmiyyətini, çəkisini, ölçü və miqdarını göstərmək məqsədilə yaradılmışdır.

Görünür Y.Seyidov bunu əsas götürərək Azərbaycan dilində miqdar zərfinin olmadığını və ya yox dərəcəsində olduğunu qeyd edir. O, müxtəlif dövrlərdə nəşr olunmuş monoqrafiya və dərsliklərdə yanlışlıqla miqdar zərfləri qrupuna daxil edilən az, çox, xeyli, həddindən artıq, az-çox, bir-iki dəfə, bir qədər, kifayət qədər, azdan-çoxdan, bir dəfə, az-az, üç-üç, lazımınca, qədərincə, təqribi, nisbətən, təxminən, tamamilə, bütünlüklə, dəfələrlə, doyunca, ölüncə, olduqca sözlərinin əslində zərf olmadığını faktlarla əsaslandırır. Həmin sözlərdən az, çox, xeyli saya, təxminən, təqribən, nisbətən modal sözə, doyunca, ölüncə, olduqca, dedikcə feili bağlamaya aid edilir[1, 369-370].Nümunələrdəki həddən artıq, bir-iki dəfə, bir qədər, kifayət qədər, azdan-çoxdan ifadələri leksik vahidlərdən ibarət birləşmələr, az-az, üç-üç, eyni sözün nitqdə təkrar işlənməsi, lazımınca, qədərincə, lazım, qədər sözlərinin mənsubiyyət şəkilçisi və ədat qəbul etmiş formaları, tamamilə, bütünlüklə, dəfələrlə ayrı-ayrı nitq hissələrinə daxil olan sözlərin ilə qoşması ilə işlənməsi şəklində izah olunur [1, 370].

Bundan əlavə, kəmiyyət anlayışı leksik-semantik səciyyəsinə və qrammatik mənasına görə hərəkətdən uzaq olan miqdar, say, ədəd sözləri ilə uyğunluq təşkil edir. Gətirilən faktlar özlüyündə

miqdar və kəmiyyət anlayışının saya aid xüsusi qrammatik kateqoriya olduğunu göstərir. Miqdar zərfləri isə dildə bir kateqoriya olaraq formalaşmamışdır. Miqdar sayları şifahi və yazılı nitq prosesində hərəkətlə əlaqələndikdə onun miqdarını deyil, dərəcəsini izah edir. Sayın feillə əlaqələndiyi istənilən cümlədə bunu aydın müşahidə etmək mümkündür: məsələn; O, hamıdan çox çalışır; düşmən xeyli irəlilədi, çox bilirsən, az danış və s. Nümunələrdəki çalışır, irəlilədi, bilirsən, danış feillərinə aid verilmiş çox, xeyli, az sözlərinin hərəkətin dərəcəsini bildirməsi göz önündədir. Burada miqdardan danışmaq mənasızdır.

Verilmiş misallar və dil materialları üzərində aparılan təhlillərdən aydın olur ki, miqdarla müqayisədə dərəcə daha geniş anlayışdır. Və əhatə dairəsinə görə həm əşya, həm də hərəkət məzmunlu söz qruplarına aid ola bilir. Hərəkətlə əlaqəlilik, yəni dərəcənin hərəkətə (və ya əksinə) münasibəti zərfin qrammatik funksiyasından doğan təbii bağlılıqdır. Bu bağlılığın dilçilikdə dəqiq ifadəsini təmin etmək üçün miqdar zərflərinin dərəcə zərfləri adı altında təqdim edilməsi elmi və məntiqi baxımdan daha doğru yanaşma hesab edilə bilər.

Həqiqi dərəcə zərflərinə dildə sayca azlıq təşkil edən tamam, tamamilə, bütünlüklə, lazımınca, qədərincə, yetərincə, bolluca sözlərini misal göstərmək olar.

Yuxarıda qeyd etdiyimiz kimi,Y.Seyidov ənənəvi dilçilikdə miqdar zərfləri sırasında öyrənilən bu sözlərdən lazımınca, qədərincə leksik vahidlərini mənsubiyyət şəkilçisi və ədat qəbul etmiş söz-formalar, tamamilə, bütünlüklə, dəfələrlə sözlərini isə ayrı-ayrı nitq hissələrinə daxil olan sözlərin ilə qoşması ilə işlənməsi adlandırır [1, 370].

Doğrudur, nümunələrdə dərəcə zərflərini formalaşdıran -ca[2] (lazımınca, qədərincə) zamanla ədatlardan, -ın[4] mənsubiyyət şəkilçisindən, ilə, -la[2](tamamilə, bütünlüklə) qoşmadan təcrid olunmuşdur. Lakin həmin hissəciklər uzunmüddətli inkişaf prosesində ilkin semantikasından uzaqlaşaraq sinxron planda yeni mənalı sözlərin yaranmasına xidmət edən leksik şəkilçilərə çevrilmişdir. Onların iştirakı ilə düzələn sözlərin izahlı lüğətlərdə müstəqil mənalı leksik vahidlər sırasında verilməsi faktı da bunu təsdiq edir.

Bəzi vəsaitlərdə zərfin məna növləri arasında səbəb və məqsəd zərflərinin adıda da çəkilir [7, 340; 3, 176]. Məlumatda məqsəd zərfinə münasibət bildirilmir, yalnız səbəb zərfinin məzmununa aydınlıq gətirilir. Zərfin bu növünə nümunə olaraq sevincdən, qorxudan və s. vahidləri misal göstərilir.

Nəticə. Sözlərin tərkibinə görə təhlili göstərir ki, sevinc və qorxu sifətlərinə qoşulan -dan[2] köməkçi morfemi leksik şəkilçi deyil, ismin çıxışlıq hal şəkilçisidir. Çünki qrammatik quruluşun tələbinə əsasən sözə leksik şəkilçidən əvvəl qrammatik şəkilçilərin artırılması (-dakı istisna olmaqla) mümkün olmadığı halda, verilmiş sözlərdə komponentlər arasına kəmiyyət və mənsubiyyət şəkilçilərini asanlıqla daxil etmək mümkündür: məsələn:1. Biz qorxumuzdan filmə baxa bilmədik və ya onlar qorxularından filmə baxa bilmədilər. 2. Mənim sevincimdən gözlərim yaşardı və ya uşağın sevincindən gözləri yaşardı və s.

Deməli, səbəb və məqsəd zərfləri dildə hələ zərfin məna növü olaraq təşəkkül tapmayıb. Beləliklə, zərflə bağlı bütün xüsusiyyətləri nəzərdən keçirdikdən sonra, onun dildə dörd növünün sabitləşdiyini qeyd etmək olar: tərz zərfləri, zaman zərfləri, yer zərfləri, dərəcə zərfləri.

ƏDƏBİYYAT

1. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, Bakı Universiteti nəşriyyatı, 2000, 403 s.
2. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. I hissə (fonetika, leksika, morfologiya). Bakı, "MBM" nəşriyyatı, 2008. 354 s.
3. Cəfərov C. Müasir Azərbaycan dili (leksikologiya, morfologiya, sintaksis məsələləri). Bakı, "Orxan" nəşriyyatı, 2016, 226 s.
4. Димитриев Н.К. Грамматика башкирского языка. Москва, 1945, 156 стр.

5. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (morfologiya). Bakı, "Elm və təhsil", 2010, 400 s.
6. Cəfərov C., Abdullayev N. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 2004, 175 s.
7. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə, Bakı, 2007, 354 s.
8. Kazımov İ. Türk dillərinin morfologiyası. III cild, Bakı, "Elm", 2019, 304 s.
9. Rüstəmov R. Türk dilinin morfologiyası. Bakı, "Elm və təhsil", 2013, 105 s.
10. Müasir Azərbaycan dili, III,Morfologiya.(AMEA Nəsimi adına Dilçilik İnstitutu), Bakı, "Elm və təhsil",2023,504 s.
11. Azərbaycan dilinin qrammatikası. I hissə, (morfologiya),,Bakı, AEA-nın nəşriyyatı, 1960,334 s.
12. Məşədiyev Q. Müasir Azərbaycan dilində nitq hissələrinin semantikası. Bakı,"Elm" 1998,106 s.
13. Hüseynzadə M. Müasir Azərbaycan dili (morfologiya), Bakı, "Şərq-Qərb",2007,280 s.

Daxil oldu: 12.02.2025
Qəbul edildi: 02.04.2025

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ BƏDƏN ÜZVLƏRİNİ BİLDİRƏN SÖZLƏRƏ KOQNİTİV DİLÇİLİK YANAŞMASI[1]

DOI: https://doi.org/10.36719/3005-3137/1/27-33

Yanghee Lee[2]
Dilçilik üzrə fəlsəfə doktoru, müəllim
Hankuk Xarici Dillər Universiteti
Türk-Azərbaycan Tədqiqatları Departamenti
Seul, Koreya
yangheelee@hufs.ac.kr
Orcıd: 0000-0002-8948-9281

Xülasə

Bu tədqiqat işi Türk və Azərbaycan dillərində bədən üzvlərini bildirən sözlərin konseptual metafora və metonimiya aspektlərini araşdırır. Koqnitiv dilçilik çərçivəsində bu tədqiqatın məqsədi, həmin terminlərin semantik genişlənmə prosesini və onların digər məfhum sahələrinə keçid mexanizmini tədqiq etməkdir. İnsan bədəni dil sistemində əsas konseptual struktur rolunu oynayır və bu struktur idraki mexanizmlər vasitəsilə müxtəlif semantik dəyişikliklərə məruz qalır. Araşdırma "ağız" və "əl" kimi bədən üzvlərini bildirən sözlərin metaforik və metonimik istifadəsini incələyir. Bu sözlərdən biri olan "ağız" yalnız insan orqanı mənasında deyil, həm də danışıq, giriş və yol qovşağı kimi müxtəlif kontekstlərdə istifadə olunur. Eyni şəkildə, "əl" termini nəzarət, sahiblik və səlahiyyət anlayışlarını ifadə etmək üçün metaforik və metonimik konstruksiyalara əsaslanır. Tədqiqat Heine və digərlərinin (1991) metaforik mənbə sahələrinin ierarxik modelindən istifadə etməklə bədən üzvləri ilə bağlı terminlərin konseptual strukturlarını araşdırır. Burada bədən üzvlərinə aid sözlərin konkret mənadan abstrakt anlayışlara doğru genişlənməsi nümayiş etdirilir. Məsələn, bəzi ifadələrdə insanın bədən üzvləri sosial və psixoloji vəziyyətləri təsvir etmək üçün istifadə olunur. Bu proseslərin təhlili göstərir ki, dilin konseptual quruluşu insan təcrübələrinə əsaslanır və həmin təcrübələr dildə müxtəlif yollarla əks olunur. Tədqiqatın nəticələri göstərir ki, bədən üzvləri ilə bağlı terminlər həm konkret, həm də abstrakt mənalarda mühüm funksional rol oynayır. Belə ifadələrin tədqiqi yalnız dilçilik sahəsində deyil, həm də dil tədrisində böyük əhəmiyyət kəsb edir. Xarici dil öyrənənlər üçün bədən üzvlərinə aid metaforik və metonimik ifadələrin mənasını anlamaq, onların ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və ifadə imkanlarını genişləndirməyə kömək edə bilər. Bu araşdırma nəticəsində hazırlanan leksik siyahı və semantik təhlillər, Türk və Azərbaycan dillərini xarici dil kimi öyrənənlər üçün daha səmərəli tədris materiallarının hazırlanmasına töhfə verə bilər. Bundan əlavə, bu yanaşma müxtəlif dillər arasında müqayisəli tədqiqat aparmaq üçün də faydalı ola bilər.

Açar sözlər: *Koqnitiv Dilçilik, Konseptual Metafora, Metonimiya, Bədən üzvləri sözləri, Türkcə və Azərbaycanca*

TÜRKÇE VE AZERBAYCAN DİLİNDEKİ VÜCUT BÖLÜMLERİNİ GÖSTEREN KELİMELER ÜZERİNE BİLİŞSEL DİLBİLİMSEL BİR İNCELEME

Yanghee Lee
Dilbilim Doktoru, Öğretim Görevlisi
Hankuk Yabancı Çalışmalar Üniversitesi
Türk ve Azerbaycan Çalışmaları Bölümü
Seul, Kore
yangheelee@hufs.ac.kr
Orcıd: 0000-0002-8948-9281

Özet

Bu çalışma Türkçe ve Azerbaycan Türkçesinde beden bölümlerini gösteren kelimelerin kavramsal metafor ve metonimi açısından incelenmesini amaçlamaktadır. Bilişsel dilbilim çerçevesinde bu terimlerin anlamsal genişlemesi ve diğer kavramsal alanlara geçiş mekanizmaları araştırılmaktadır. İnsan bedeni, dil

[1] This work was supported by the Ministry of Education of the Republic of Korea and the National Research Foundation of Korea (NRF-2023S1A5B5A17085676)
[2] Lecturer in the Department of Turkish-Azerbaijani Studies

sisteminde temel bir kavramsal yapı olarak işlev görmekte ve bilişsel mekanizmalar aracılığıyla çeşitli anlamsal değişimlere uğramaktadır. Araştırma, "ağız" ve "el" gibi beden bölümlerini ifade eden kelimelerin metaforik ve metonimik kullanımlarına odaklanmaktadır. Örneğin, "ağız" kelimesi yalnızca bir organı ifade etmekle kalmaz, aynı zamanda konuşma, giriş ve kavşak gibi farklı bağlamlarda da kullanılmaktadır. Benzer şekilde, "el" kelimesi ise kontrol, sahiplik ve yetki kavramlarını ifade eden metaforik ve metonimik yapıların oluşumuna katkı sağlamaktadır. Bu çalışmada Heine ve diğerlerinin (1991) metaforik kaynak alanlarının hiyerarşik modeline dayanılarak, vücut ile ilgili terimlerin kavramsal yapıları analiz edilmektedir. Çalışma, vücut organlarını ifade eden kelimelerin somut anlamdan soyut kavramlara doğru nasıl genişlediğini göstermektedir. Bazı ifadelerde, vücut bölümleri sosyal ve psikolojik durumları tanımlamak için kullanılmaktadır. Bu süreçlerin analizi, dilin kavramsal yapısının insan deneyimlerine dayandığını ve bu deneyimlerin dilde çeşitli şekillerde yansıtıldığını ortaya koymaktadır. Çalışmanın bulguları, vücut bölümleriyle ilgili terimlerin hem somut hem de soyut anlamlarda önemli roller oynadığını göstermektedir. Bu tür ifadelerin incelenmesi, sadece dilbilim alanında değil, aynı zamanda dil öğretimi bağlamında da büyük önem taşımaktadır. Yabancı dil öğrenenler için vücut bölümlerine dayalı metaforik ve metonimik ifadelerin anlaşılması, iletişim becerilerini geliştirmeye ve ifade olanaklarını genişletmeye yardımcı olabilir. Bu araştırmanın sonucunda oluşturulan kelime listesi ve anlamsal analizler, Türkçe ve Azerbaycan Türkçesini yabancı dil olarak öğrenen bireyler için daha etkili öğretim materyallerinin geliştirilmesine katkı sağlayabilir. Ayrıca, bu yaklaşım farklı diller arasında karşılaştırmalı araştırmalar yapmak için de faydalı bir temel sunabilir.

Anahtar kelimeler: *Bilişsel Dilbilim, Kavramsal Metafor, Metonimi, Vücut Bölümü Terimleri, Türkçe ve Azerbaycan dili*

A COGNITIVE LINGUISTIC APPROACH TO BODY-PART TERMS IN TURKISH AND AZERBAIJANI

Yanghee Lee
Doctor of Philosophy in Linguistics, lecturer
Hankuk University of Foreign Studies
Department of Turkish and Azerbaijani Studies
Seoul, Korea
yangheelee@hufs.ac.kr
Orcıd: 0000-0002-8948-9281

Summary

This study aims to examine the conceptual metaphor and metonymy aspects of body-part terms in Turkish and Azerbaijani. Within the framework of cognitive linguistics, this research investigates the semantic extension of these terms and their transition to other conceptual domains. The human body serves as a fundamental conceptual structure in language systems and undergoes various semantic transformations through cognitive mechanisms. The study focuses on the metaphorical and metonymic uses of body-part terms such as "ağız" (mouth) and "el" (hand). For instance, the word "ağız" not only refers to a physical organ but is also used in contexts such as speech, entryways, and intersections. Similarly, the term "el" contributes to the formation of metaphorical and metonymic structures that express control, possession, and authority. This research employs the hierarchical model of metaphorical source domains proposed by Heine et al. to analyze the conceptual structures of body-related terms. The study demonstrates how body-part terms expand from concrete meanings to abstract concepts. In some expressions, body parts are used to describe social and psychological states. The analysis of these processes reveals that the conceptual structure of language is based on human experiences, which are reflected in linguistic expressions in various ways. The findings indicate that body-part terms play significant roles in both concrete and abstract meanings. The investigation of such expressions is crucial not only in linguistics but also in language education. Understanding metaphorical and metonymic expressions related to body parts can enhance the communication skills of language learners and expand their expressive capabilities. The lexical inventory and semantic analyses developed in this study can contribute to the development of more effective instructional materials for learners of Turkish and Azerbaijani as foreign languages. Furthermore, this approach provides a valuable foundation for conducting comparative linguistic research across different languages.

Keywords: *Cognitive Linguistics, Conceptual Metaphor, Metonymy, Body-Part Terms, Turkish and Azerbaijani Language*

Aktuallıq. Bu tədqiqat işinin aktuallığı Türkiyə və Azərbaycan dilində mövcud olan bədən üzvləri ilə bağlı leksik vahidlərin koqnitiv dilçilik istiqamətində sistemli şəkildə araşdırılmasına əsaslanır. Məqalədə hər iki dildə bədən üzvləri ilə əlaqədar olan ifadələrin koqnitiv-semantik xüsusiyyətləri təhlil edilir və bu sahədə mövcud olan konseptual strukturlar müəyyənləşdirilir.

Annotasiya. Koqnitiv dilçilik çərçivəsində dil və təfəkkür arasındakı əlaqəni araşdıran bu tədqiqatda bədən üzvlərini ifadə edən sözlər fundamental leksik vahidlər kimi öyrənilir. Bu leksik vahidlər koqnitiv mexanizmlər vasitəsilə məcazi məna istiqamətində genişlənərək metaforik və metonimik ifadələr yaradır. Türk və Azərbaycan dillərində bu koqnitiv hadisələrin tədqiqi xüsusi əhəmiyyət kəsb edir, çünki əldə edilən nəticələr bu dillərin xarici dil kimi tədrisi prosesində səmərəli təlim metodu kimi istifadə oluna bilər.

Metod. Məqalədə müqayisəli-linqvistik təhlil, tutuşdurma və qarşılaşdırma metodları tətbiq edilmişdir. Türk dili ilə bağlı materialların təhlilində korpus əsaslı tədqiqat üsullarından istifadə olunmuşdur. Bu metodoloji yanaşma hər iki dildə bədən üzvləri ilə əlaqədar olan ifadələrin sistemli şəkildə araşdırılmasına imkan vermişdir.

Giriş. Dil, insanın dünyanı qavrama və məfhumlaşdırma tərzini əks etdirən əsas vasitədir. Gündəlik həyatda istifadə etdiyimiz sözlər və ifadələr sadəcə abstrakt dil elementləri deyil, eyni zamanda insanın bədən təcrübələrindən qaynaqlanan idrak proseslərinin bir əksidir. Xüsusilə insan bədəni ilə birbaşa əlaqəli olan sözlər, yəni bədənə aid sözlər, yalnız fiziki obyektləri adlandırmaqla kifayətlənmir, həm də hissləri, düşüncələri və abstrakt məfhumları ifadə etməkdə mühüm rol oynayır. Koqnitiv dilçilik (cognitive linguistics) baxımından, dil sisteminin əsası insanın fiziki təcrübələri əsasında formalaşan konseptuallaşdırma (conceptualization) prosesinə əsaslanır. Bu çərçivədə, koqnitiv dilçilər dilin mənalı strukturunun insanın fiziki təcrübəsinə əsaslandığını və bu təcrübənin idraki bir quruluş formalaşdırdığını qəbul edir, eyni zamanda insan beyninin işləmə mexanizminə diqqət yetirirlər [Lakoff, 1987; Johnson, 1987; Ungerer & Schmid, 1996; Lakoff & Johnson, 1999].

Koqnitiv semantik baxımından, əksər frazeoloji birləşmələr sözün həqiqi mənası ilə məcazi mənası arasında konseptual motivasiya (conceptual motivation) əsasında işləyir və bu semantik strukturdakı konseptual metaforalar və çevrilmələrin idraki mexanizmlər kimi fəaliyyət göstərdiyini dəstəkləyir[4, 446-453]. Şəkil sxemi (image schema) insan təcrübəsinin zehində formalaşan bir strukturunu ifadə edir və Lakoff (1987) bu vizual sxemin konseptual strukturun əsasını təşkil etdiyini iddia edir[8, 275]. Johnson (1987) isə dünyanın dərk edilməsində fərdlərin təkrarlanan təcrübələri və dinamik nümunələrinin, yəni fiziki təcrübənin, vizual sxemlər vasitəsilə ifadə edildiyini vurğulayır. Qab sxemi (Container Schema) "içəri", "sərhəd" və "çöl" anlayışlarını ifadə edən bir görüntü sxemdir. Qab sxemi görünüşünün nümunələri türk və Azərbaycan dillərində "əl / el" (hand) sözünün istifadəsi vasitəsilə müşahidə edilə bilər[4, 29].


(1)	a.	(AZ)	Könlüm sənin ***əlindədir***.
		(TR)	Kaderim senin ***elindedir***.
	b.	(AZ)	Nə edim, ***əlimdə deyil***. Sevməmək üçün çalışıram, amma olmur.
		(TR)	Ama ***elimde değil***, öfkeleniyorum.
	c.	(AZ)	O evə ***əliboş*** getmək istəmirdi, pay almalıydı.
		(TR)	Galatasaray, Hollanda'dan ***eli boş*** döndü.
	d.	(AZ)	O da cibindən bir ***ovuc dolusu*** əllilik-yüzlük çıxardı.
		(TR)	Eve ***eli boş*** döner, üstelik ***avuç dolusu*** para harcarlar.

Yuxarıdakı nümunələr əlləri bir QAB kimi qəbul edən dil ifadələrini göstərir. (1a) və (1b)-də bədən üzvlərindən biri olan "əl" sözündən sonra yerlik şəkilçisi istifadə edilərək qabın içi və çölü, əlin içi və çölü ilə məcazi şəkildə ifadə edilmişdir. Yəni, konseptual metafora vasitəsilə NƏZARƏT anlayışı ifadə olunur. Bundan əlavə (1c) və (1d)-də olduğu kimi, "boş" və "dolu" sifətləri ilə əllərin boş və ya dolu olması və ya "ovuc" sözünün lüğət mənası vasitəsilə əllərdə bir şeyin olub-olmamasına əsaslanan məcazi ifadə təsvir edilir. Başqa sözlə, bu nümunələrdə SAHİBLİK anlayışı bədən üzvü olan "əl" sözü vasitəsilə ifadə olunur. Bundan əlavə, (1c)-də göstərilən türkcə nümunə

"əli boş dönmək" ifadəsinin SAHİBLİK anlayışında daha da genişləndiyini göstərir və maddi baxımdan istifadə ediləndə oyunda heç bir uğur və ya qazanc əldə etmədən geri qayıtmaq mənasını ifadə edir.

Lakoff və Johnson (1980) konseptual metafora nəzəriyyəsində (Conceptual Metaphor Theory) konseptual quruluşun qismən metafora sistemindən formalaşdığını irəli sürür. Konseptual metafora bir təcrübə sahəsinin (domain) fərqli bir təcrübə sahəsi ilə başa düşüldüyü bir fenomendir. Sistemli idraki ideologiyada hədəf sahəsi (target domain, X) daha abstrakt bir sahəni, mənbə sahəsi (source domain, Y) isə daha konkret bir sahəni ifadə edir. Konseptual metaforanın iki sahəsi arasındakı əlaqə oxşarlıq (similarity) münasibətlərinə əsaslanır. Bundan əlavə "X, Y baxımından başa düşülür" və ya "X, Y kimi başa düşülür" (X understood in terms of Y) prinsipi ilə ifadə olunur[9].

Konseptual fenomen kimi metonimiyanın (metonymy) əsas xüsusiyyəti onun dil çevrilməsinin çox təbii bir göstərici (referential) olması və metaforadan fərqli bir funksiyaya malik olmasıdır. Lakoff (1987) metonimiyanın konseptual əlaqəsini "X, Y-ni göstərir/ ifadə edir" və ya "Y əvəzinə X ilə ifadə edilə bilər" (X stands for Y) prinsipi ilə izah edir. O, həmçinin fiziki və ya səbəb-nəticə əlaqələri ilə motivasiya olunan bitişikliyi (contiguity) metonimiyanın unikal xüsusiyyəti kimi müəyyənləşdirir[8, 78]. Lakoff eyni idraki sahədə digər konseptual kontekstlərə zehni yanaşmanı əlavə edərək yuxarıdakı məcazın xüsusiyyətlərini genişləndirmişlər. Kövecses (2002) <Şəkil 1>-də göstərildiyi kimi, metaforanın tək istiqamətli xüsusiyyətini və oxşarlıq əsasında işləyən bir model kimi təsvir etmişdir. O, metaforanın xüsusiyyətlərini təqdim edərək bu anlayışı izah etmişdir[5, 147-148].



a. Metaforada oxşarlıq əlaqəsi b. Metonimiyada bitişiklik əlaqəsi

< Şəkil 1> Metafora və Metonimiyanın Xüsusiyyətləri (Kövecses 2002: 147-148)

Son illərdə Azərbaycanda koqnitiv dilçilik sahəsi inkişaf etməkdədir. Bu sahədə aparılan tədqiqatların təhlili göstərir ki, koqnitiv dilçilik istiqamətində müəyyən irəliləyişlər əldə edilmişdir. Mövcud tədqiqatların təhlili aşağıdakı nəticələri ortaya qoyur: Quliyev (2021) koqnitiv dilçilikdə konseptin əsas vahid kimi rolunu araşdırmışdır. O, konsept anlayışının mənşəyini, idrak və dil arasındakı əlaqəsini və müxtəlif elmi yanaşmalar çərçivəsində necə tərif olunduğunu təhlil etmişdir. Tədqiqat konseptin insan düşüncəsində necə təşkil olunduğunu və dil vasitəsilə necə formalaşdığını izah edir[6]. İsmayılı (2024) dilə funksional və koqnitiv yanaşmaların fərqlərini araşdırmışdır. Strukturalizm və funksionalizm məktəblərini müqayisə edərək, funksional dilçiliyin ünsiyyətə əsaslandığını, koqnitiv dilçiliyin isə danışıq dilinin istifadəsinə önəm verdiyini vurğulamışdır[3]. Quliyeva (2024) metaforanın koqnitiv dilçilik baxımından rolunu və inkişafını araşdırmışdır. O, metaforanın ənənəvi olaraq çoxmənalılıq və üslubi məcaz kimi qəbul edildiyini, lakin müasir yanaşmada dildə informasiyanı strukturlaşdıran və dünyanın metaforik mənzərəsini formalaşdıran idraki vasitə kimi tədqiq edildiyini vurğulamışdır[7]. Bununla belə, dərin semantik tədqiqatların məhdudluğu müşahidə edilməkdədir. Bu səbəbdən, təqdim olunan tədqiqat işində insan bədəni ilə bağlı linqvistik prinsipləri koqnitiv dilçilik çərçivəsində təhlil edərək, leksik vahidlərin ilkin semantik strukturundan məcazi məna genişlənməsinə qədər olan konseptual inkişaf prosesi araşdırılacaqdır.

İnsan bədəni gerçəkliyin dərk edilməsi və konseptuallaşdırılması prosesində fundamental koqnitiv vasitə və əsas istinad nöqtəsi rolunu oynayır. Bu bədənə istinad edən bədən dili isə insanın xarici dünyanı dərk etmə ölçüsü və bütün dillərin əsas lüğət fondudur. İnsanın gerçəkliyi ilkin


olaraq somatik təcrübə vasitəsilə qavraması və bu təcrübənin dil sisteminə proyeksiyası koqnitiv dilçilikdə bədənləşdirmə (embodiment) konsepsiyası kimi səciyyələndirilir. Bədən sözləri bütün dillərin əsas leksik qatını təşkil edir və bu sözlər vasitəsilə insanın xarici dünyanı qavrama forması dildə təzahür edir, bədən sözləri insanın bədən üzvlərinə aid lüğət vahidlərdir. Bədənə aid terminlər təkcə fiziki orqanları ifadə etməklə kifayətlənmir, eyni zamanda hiss və düşüncələr kimi abstrakt ifadəsində geniş istifadə olunur.

Heine və digərləri (1991), məfhum sahələrinin genişlənmə ardıcıllığını kateqorial metafor (categorial metaphor) çərçivəsində izah edir. Kateqorial metaforda mənanın genişlənməsi İNSANdan ƏŞYAYA, ƏŞYAdan HƏRƏKƏTƏ və daha sonra MƏKAN, ZAMAN və XÜSUSİYYƏT sahələrinə qədər davam edir. Bu metodoloji çərçivədə, konseptual və kateqorial sahələrin genişlənmə istiqaməti aşağıdakı kimi təklif edilmişdir[2, 48-29]:

INSAN (HUMAN) → OBYEKT (OBJECT) → HƏRƏKƏT (ACTIVITY) → MƏKAN (SPACE)

→ ZAMAN (TIME) → KEYFIYYƏT (QUALITY)

Kateqorial metafor, konkret varlıqlardan daha abstrakt məfhumlara qədər uzanan hierarxik bir quruluşa malikdir. Bundan əlavə, Heine və digərləri (1991: 55) <Şəkil 2>-dəki kimi metaforik mənbə sahəsinin hierarxiyasını ətraflı izah etmişdir. Bu yanaşmaya görə, mənanın genişlənmə istiqaməti, İNSAN məfhum sahəsindən başlayaraq daha abstrakt sahələrə doğru sağa yönəlmiş tək istiqamətli xüsusiyyət daşıyır. <Şəkil 2>-də göstərilən məfhum sahələrinin, başqa sözlə, kateqorial sahələrin hierarxik strukturunda bir məfhum metaforik mexanizmlə genişləndikdə, İNSAN anlayışına əsaslanaraq, konkretlikdən abstraktlığa doğru irəliləyərək digər kateqoriyaya keçid etdiyi müşahidə olunur. Bu çərçivədə, Heine və digərləri (1991) metaforik məfhum sahələrinin hierarxiyasının, insan təcrübələrinə daha yaxın olan konkret kateqoriyalardan ən uzaqdakı kateqoriyalara qədər uzandığını və bu genişlənmələrdə bədənləşdirmə (embodiment) və ya eqosentrik məsafənin (egocentric distance) əks olunduğunu qeyd etmişdir.



< Şəkil 2> Mənbə sahəsinin hierarxiyası (Heine et al, 1991:55)

Lee (2023), koqnitiv dilçilik baxımından aşağıda (2)-dəki nümunələrlə bədən üzvlərindən türkcədə "ağız" sözünü ehtiva edən bəzi ifadələri təhlil etmişdir. Ana dili türk dili olanlar bu ifadələrdəki "ağız" sözünü asanlıqla aşağıdakı mənalarda başa düşə bilər: (2a) insan orqanı; (2b) yemək istəyi; (2c) dediyim, danışdığım; (2ç) stəkanın sonuna qədər; (2d) tunelin çıxışı; (2e) mağaranın girişi; (2f) yol qovşağı. Bu nümunələrdə "ağız" sözünün mənaları fərqli şəkildə görünsə də, əsas etibarilə insan orqanı olan ağız anlayışına əsaslanaraq mənası genişlənmişdir [10, 130-131].

(2)	a.	Bir gün, baktım ***ağzında*** diş yok.
	b.	Belli, onun da ***ağzı sulanmış***, o da köfteden hakkını istiyor, bir tane olur veya iki tane olur...
	c.	Benim ***ağzımda*** şaka olan başkasının ağzında hiç şaka gibi durmuyordu bazen.
	ç.	Önce Ali bardağı ***ağzına*** kadar suyla doldurdu.
	d.	Şimdi tünelin ***ağzında*** değilim artık.
	e.	Dumanın dışarıya çıkabilmesi için büyük ateş, mağaranın ***ağzına*** yakın bir yerde yakıldığı için …
	f.	Zeytinburnu minibüslerine binerek, dört *yol* ***ağzında*** inip inşaata doğru yürümeye başladı.

Yuxarıdakı nümunələrdə bədən üzvlərindən "ağız" sözünü ehtiva edən bəzi türkcə ifadələr yer alır. Ana dili türk dili olanlar ifadələrdəki "ağız" sözünü aşağıdakı mənalarda asanlıqla anlaya bilər: (2a) insan orqanı; (2b) yemək istəmək; (2c) söylədiyim, danışdığım; (2ç) stəkanın açıq tərəfi (sonuna qədər); (2d) tunelin girişi və ya çıxışı; (2e) mağaranın girişi; (2f) yol qovşağı. Bu nümunələrdə istifadə edilən "ağız" sözünün mənaları fərqli şəkildə görünsə də, əsas mənası orqan olan ağız anlayışına bağlı olaraq genişlənmişdir. (2)-dəki nümunələrdə, əsas mənada insan bədəninin bir üzvünü ifadə edən "ağız", bu orqanın xüsusiyyətlərinə əsaslanan müxtəlif təcrübələri dilə əks etdirir, bənzərlik və ya bitişiklik əlaqəsi ilə genişlənmiş mənalar qazandığı müşahidə olunur. (2a)-da "ağız" sözü birbaşa insan orqanı olaraq göstərilir. Türk Dil Qurumu (TDK) Güncəl Lüğətində də bu termin ilk olaraq anatomiya mənasında izah edilir və belə tərif verilir: "Üzdə, yanaqlar və iki çənə arasında yerləşən, səs çıxarmağa, nəfəs almağa və qidaların həzm olunmasına başlamağa kömək edən orqan." (2b)-dəki "ağzı sulanmaq" ifadəsi, bədənin aclıq hissini qavraması nəticəsində meydana gələn fizioloji reaksiyanı əks etdirir[12]. Bu fizioloji reaksiya birbaşa dil ifadəsinə metonimik motivasiya ilə keçərək "yemək istəmək" mənasını ifadə edir. (2c)-də isə ağzın səs çıxarma funksiyası, onun danışmaq qabiliyyətinə sahib bir orqan olması ilə bağlıdır. Bu funksional xüsusiyyətinə əsaslanaraq "AĞIZ-KONUŞMAQ" metonimik əlaqəsi meydana gəlir. (2ç), (2d) və (2e)-də isə "ağız" artıq İNSAN məfhum sahəsindən çıxaraq digər məfhum sahələrinə keçmişdir. Bu üç nümunənin ortaq xüsusiyyəti, qab və ya içi boş olan bir obyektin açıq tərəfini ifadə etməsidir. Bu formal bənzərlik əlaqəsindən qaynaqlanan metafor vasitəsilə genişlənmiş mənalar yaranmışdır. (2ç)-də "ağız" artıq NESNE sahəsinə aid olaraq bir stəkanın açıq tərəfini ifadə edir. (2d) və (2e)-də isə tünelin və mağaranın açıq tərəfini, yəni giriş və ya çıxışını bildirir. Bu iki nümunədə məkanın (UZAM sahəsi) KAP sxemi ilə obyekt kimi qavrandığı müşahidə olunur. Son olaraq, (2f)-dəki "yolun ağzında" ifadəsi, bir neçə yolun birləşdiyi yer mənasını verir. Bu görünüş UZAM sahəsində bədənləşdirməyə əsaslanan bənzərlik əlaqəsindən yaranan metaforik istifadə formasıdır. Bədənin içi və çölü arasındakı əlaqə (dodaqlardan boğaza qədər olan keçid), yolların birləşməsi və kəsişməsi ilə müqayisə edilir və bir neçə yolun birləşdiyi yer mənasında istifadə olunur. Bundan əlavə, bu ifadə təkcə qovşaq (kavşak) üçün deyil, bir yolun ayrılan giriş hissəsini bildirmək üçün də "yolun ağzında" kimi işlənə bilər.

Baş (2023), ağız ifadələrindən çıxış edərək türkcədə "ağız" sözünü ehtiva edən idiomlar üzərində dil metonimiyalarını müəyyən etmişdir: YEMƏK YEMƏK ÜÇÜN AĞIZ, DANIŞMAQ ÜÇÜN AĞIZ, SÖZ ÜÇÜN AĞIZ, DİL (LİSAN) ÜÇÜN AĞIZ[1, 26-27]. Məsələn, türkcədə "ağzını açmaq" ifadəsi məcazi mənada danışmağa başlamaq mənasını verir. "Ağız" və ona aid xüsusiyyətlərdən biri olan danışıq eyni məfhum sahəsinə aid olduğu üçün aralarında metonimik əlaqə mövcuddur. Azərbaycan türkcəsində də bu mənada "ağzını açmaq", "ağza almaq" ifadələri istifadə edilə bilər. Bəzi "ağız" sözünü ehtiva edən deyimlərdə, "ağız" DUYĞU məfhum sahəsində işlədilir. Baş (2024) bu deyimlər üçün "DUYĞULARIN YANSITICISI" və ya "DUYĞULARIN YERLƏŞDİYİ MƏKAN" kimi bir məfhum ortaya qoymuşdur[1, 26]. Bununla bağlı bir neçə nümunələr həm türkcə, həm də Azərbaycan dilində bu şəkildə verə bilər. Məsələn, türkcədə: "ağzı ağzına qovuşmamaq", "ağız bükmək", "ağzı köpürmək", "ağzı qulaqlarına varmaq", "ağzının dadı pozulmaq", "ağzını açıq buraxmaq". Azərbaycan türkcəsində isə duyğunu ifadə edən bənzər ifadələr bunlardır: "ağzı büzmək", "ağzı açıq qalmaq", "ağzı ayrıla qalmaq" və s.

Radden (2004) bir çox dildə metonimik zəncirin aralıq mərhələlərinin ixtisar edilməsi ilə ilkin və son mərhələlərin birləşməsindən yaranan dil üçün danışıq orqanı metonimiyasının mövcud olduğunu müşahidə etmişdir[11]. Demək olar ki, bütün Hind-Avropa dillərində “dil” sözü bir orqan adı olaraq istifadə edilsə də, “lisan (söz)” mənasında da işlədilir. Metafor və metonimiyaların müəyyən edilməsi üçün Şəkil 1-də görüldüyü kimi eşləşmənin (mapping) eyni məfhum sahəsi daxilində, yoxsa iki fərqli məfhum sahəsi arasında baş verdiyi müəyyən edilir.

Nəticə. Bu tədqiqatda türk və Azərbaycan dillərində bəzi bədən üzvlərini bildirən sözlər nümunə kimi götürülərək, həmin orqanları ifadə edən əsas mənanın digər məfhum sahələrində necə istifadə edildiyi və bu yolla mənasının necə genişləndiyi araşdırılmışdır. Başqa sözlə, mənanın genişlənməsi prosesində İNSAN məfhum sahəsinin digər məfhum sahələrini necə qavradığı və bunun dilə necə əks olunduğu tədqiq edilmişdir. Bu baxımdan, bədən üzvlərini bildirən sözlər əsas mənada həm türk, həm də Azərbaycan dillərində konkret məfhum sahələrindən abstrakt məfhum

sahələrinə qədər geniş şəkildə istifadə olunur. Türk və Azərbaycan dillərində bədən sözlərini ehtiva edən ifadələr, bədənin müəyyən xüsusiyyətlərinə əsaslanaraq idraki mexanizmlərlə motivləşdirilmişdir.

Bədən üzvləri ilə bağlı leksik araşdırmalar əsas lüğət fondunun məna genişlənməsi baxımından xarici dil tədrisi sahəsində də mühüm mövzu hesab olunur. Bu tədqiqat, türk və Azərbaycan dillərində bədən üzvlərini bildirən sözlər arasında xarici bədən üzvlərinə aid leksik vahidlərin yer aldığı frazeoloji birləşmələri təhlil edərək nəticədə bu ifadələrin siyahısını hazırlamağı məqsəd qoyur. Belə bir leksik siyahı əsas lüğət tərkibinin məcazi mənalarını, frazeoloji və sabit söz birləşmələrini öyrənməyə kömək edə bilər və ünsiyyət baxımından türk dilini öyrənənlərin emosional ifadə vasitələrini daha da zənginləşdirə bilər. Bundan başqa, bu leksik siyahı koreya dili ilə müqayisəli tədqiqat aparmaq üçün də dəyərli mənbə ola bilər.

Bu vasitə ilə türk dilindəki ifadələrlə koreya dilindəki ifadələr arasındakı oxşar və fərqli cəhətləri daha asan təhlil etmək mümkündür. Bu da təkcə türk dilini öyrənən koreyalılar üçün deyil, həm də koreya dilini öyrənən türkdilli insanlar üçün faydalı material olacaq. Eyni zamanda, bu araşdırma gələcəkdə daha geniş tədqiqatların aparılmasına zəmin yaradır və əldə olunan nəticələr təkcə dilçilik sahəsində deyil, həm də pedaqogika və sosial elmlər kimi digər sahələrdə də istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Baş, M. Kavramsal Metafor ve Metonimi Üzerine Uygulamalar: sTürkçede Konuşma Organları Vasıtasıyla Dilsel Davranışa Ait Kavramlaşmalar, Toros Üniversitesi Yayınları, 2023
2. Heine, B., Claudi, U., & Hünnemeyer, F. Grammaticalization: A conceptual framework. Cambridge University Press. 1991
3. İsmayıllı, T. Dilə Funksional Yanaşma Və Koqnitiv Dilçilik Modelləri, Elmi Tədqiqat Beynəlxalq Onlayn Elmi Jurnal, Cild: 4 Sayı: 5, 19-22, 2024
4. Johnson, M. The body in the mind: The bodily basis of meaning, imagination, and reason.The University of Chicago Press, 1987.
5. Kövecses, Z. Metaphor: A Practical Introduction. Oxford: Oxford University Press, 2002
6. Quliyev. H. Konsept koqnitiv dilçiliyin əsas vahidi kimi, No. 2(13), 161-169, 2021
7. Quliyeva. G. Metafora Koqnitiv Dilçilik Nöqteyi-Nəzərindən, Elmi İş Beynəlxalq Elmi Jurnal, Cild: 18 Sayı: 2, 48-53, 2024
8. Lakoff, G. Women, Fire and Dangerous Things: What Categories Reveal. About the Mind, Chicago: University of Chicago Press, 1987
9. Lakoff, G & Mark, J. Metaphors We Live By. Chicago: University of Chicago Press, 1980
10. Lee, Y. Anlambilimde Güncel Çalışmalar: Bedenleştirmeye Dayalı Anlam Genişlemesi: Türkçe ve Korece Beden Sözcükleri Üzerine Bir İnceleme, Ankara: Anı Yayıncılık, 2021
11. Radden, G. The metonymic folk model of language. B. Lewandowska-Tomaszczyk, & A.Kwiatkowska (Haz.), içinde Imagery in language, 543–565. Peter Lang, 2024
12. Türk Dil Kurumu Güncel Sözlük : https://www.tdk.gov.tr

Daxil oldu: 13.01.2025
Qəbul edildi: 27.03.2025

TÜRK DİLLƏRİNDƏ İŞLƏNƏN ORTAQ FRAZEOLOJİ VAHİDLƏRİN FORMA VƏ MƏNA XÜSUSİYYƏTLƏRİ (AZƏRBAYCAN, TÜRK VƏ TÜRKMƏN DİLLƏRİNDƏ)

DOI: https://doi.org/10.36719/3005-3137/1/34-46

Şəkər Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru, müəllim
ADPU, Türkoloji mərkəz
Bakı, Azərbaycan
shakarmammadova1986@gmail.com
Orcid: 0009-0005-5385-4733

Xülasə

Tərkibi ən az iki sözdən ibarət olan frazeoloji vahidlərin daşlaşma xüsusiyyəti, onu əmələ gətirən sözlərin sabit qalmasını, yerlərinin dəyişməməsini və yerlərinə başqa sözlərin işlədilməməsini də təmin edir. Bu xüsiyyəti sayəsində frazeoloji vahidlər dilin lüğət tərkibində önəmli yerə sahibdir və olduğu kimi başqa dillərə çevrilə bilmir. Bu hər dildəki frazeoloji vahidlərin özünəməxsus xüsusiyyətlərindən biridir. Türk dilləri frazeologiya baxımından dünyanın ən zəngin dillərindən biridir. İstər yazıda, istərsə də şifahi nitqdə bilərəkdən və ya bilməyərəkdən istifadə etdiyimiz bu frazeologizmlər faktiki olaraq ifadənin ayrılmaz hissəsidir. Ədəbiyyatın bütün janrlarında ifadəyə canlılıq, məmnunluq qatmaq üçün istifadə olunan frazeoloji vahidlər – deyimlər şair və yazıçıların diqqətindən kənarda qala bilməyəcəyi çox qiymətli ifadə elementləridir. Atalar sözləri kimi frazeoloji vahidlər də az sözlə çox məna ifadə etməyin ən yaxşı nümunəsidir. Son illərdə türk dillərində frazeologizmlərlə bağlı çoxşaxəli və əhatəli araşdırmaların aparıldığının şahidi oluruq. Bu məqalədə Azərbaycan, Türk və Türkmən dillərində işlədilən bəzi ortaq frazeoloji vahidlər araşdırılaraq tədqiq olunmuşdur. Oğuz qrupu türk dillərinin ortaq işlədilən frazeoloji vahidlərin bir qismi çağdaş dövrümüzdə Azərbaycan, Türk və Türkmən dillərinin ədəbi dilində işlədilməkdədir. Bu frazeolojizmlər səs, forma, cümlə quruluşu və söz varlığı baxımından xeyli oxşarlıqlar göstərir. Frazeoloji vahidlərin daşlaşma xüsusiyyətindən istifadə edərək bir çoxu sözbəsöz eyni olan, bəziləri isə eyni məna daşıyan ortaq frazeoloji vahidləri – deyimləri müəyyən etməyə cəhd edilmişdir. Maraqlıdır ki, Türkmən dilində frazeoloji birləşməni təşkil edən bəzi sözlər Azərbaycan və Türk dillərində fonetik fərqlərlə işlənir. Məsələn, Türkmən dilində bəzi deyimlərdə sait uzantısı olduğu halda, Azərbaycan və Türk dillərində bu uzantılar yoxdur: bel bağlamax (Azərbaycan) - bi:l ba:ğlamak - (Türkmən) - bel bağlamak (Türk). Eyni zamanda Türkmən dilində sözlərin əvvəlində b>v dəyişməsi görünmür: canını verməx`(Azərbaycan) - ca:nını bermek (Türkmən) - canını vermek (Türk). Aydındır ki, deyimlərin daşlaşma xüsusiyyəti belə səs dəyişikliklərinin aşkar edilməsində təsirli olur. Ortaqlıq göstərən frazeoloji vahidlər onları təşkil edən sözlərin fərqli olmağından asılı olmayaraq ifadə etdikləri əsas baxışların ortaq olduğu görünür. Burada cin atına minmək (Azərbaycan) - cınıñ atlanmak (Türkmən) - cinleri başına toplan-mak (üşüşmek) (Türk), bəxti dönmək, bəxti çönmək (Azərbaycan) - bağtıñ ba:ğlanmak (Türkmən) - bahtı kapanmak (Türk) kimi frazeologizmlərdə onların quruluş məntiqlərinin eyni olduğu görülməkdədir. Məqalədə verilən üç cədvəldə ortaq frazeoloji vahidlər ifadə etdikləri mənalarla birlikdə verilmişdir.

Açar sözlər: *frazeoloji vahidlər, deyimlər, ortaq, türk dilləri, məna eyniliyi, Oğuz qrupu*

FORMATIVE AND SEMANTIC CHARACTERISTICS OF COMMON PHRASEOLOGICAL UNITS OF THE TURKIC LANGUAGES (IN AZERBAIJANI, TURKISH, TURKMEN LANGUAGES)

Shakar Mamadova
Doctor of philosophy in philology
ASPU, Turkological Center
Baku, Azerbaijan
shakarmammadova1986@gmail.com
Orcid: 0009-0005-5385-4733

Summary

The fossilization property of phraseological units consisting of at least two words ensures the stability of the words they comprise the immutability of their positions and the absence of replacement of the words they

comprise with other words. Due to this feature, phraseological units occupy an important place in the vocabulary of a language and cannot be translated into other languages in their pure form. Turkic languages are considered to be among the richest in phraseology languages in the world. Phraseological units, which we use both in written and oral speech, are actually an integral part of expression. Phraseological units used to add liveliness and imagery to statements in all genres of literature are very valuable elements of expression that poets and writers cannot ignore. Phraseological units such as proverbs are the best example of expressing a great deal of meaning with a few words. This article examines and studies some commonly used phraseological units used in the Azerbaijani, Turkish and Turkmen languages. Some phraseological units common in the Oghuz group of Turkic languages continue to be used in the literary language of the Azerbaijani, Turkish and Turkmen languages in the modern era. These phraseological units demonstrate significant similarities in terms of sound, form, sentence structure and vocabulary. Interestingly, some words that form phraseological units in the Turkmen language are used with phonetic differences in the Azerbaijani and Turkish languages. For example, while lengthening some Turkmen and Turkish idioms feature vowel, Azerbaijani and Turkish lack such: bel bağlamax (In Azerbaijani) - bi:l ba:ğlamak - (in Turkmen language) - bel bağlamak (Turkish). At the same time, replacement b>v does not occur at the beginning of words in the Turkmen language: canını verməx`(in Azerbaijani) - ca:nını bermek (in Turkmen) - canını vermek (in Turkish). Phraseological units that exhibit commonality appear to share the basic meanings they express, regardless of differences in the words of which they are composed.Здесь видно cin atına minmək (in Azerbaijani) - cınıñ atlanmak (in Turkmen) - cinleri başına toplanmak (üşüşmek) (in Turkish), bəxti dönmək, bəxti çönmək (in Azerbaijani) - bağtıñ ba:ğlanmak (in Turkmen) - bahtı kapanmak (in Turkish) that the structural logic of phraseological units is the same. In the article, idioms that are similar in the Azerbaijani, Turkish and Turkmen languages were identified from the point of view of sound, form and the meaning they express and were considered in three groups:1) phraseological units consisting of the same words and expressing the same concept, despite sound differences; 2) phraseological units expressing the same meaning using the same words but different suffixes; 3) phraseological units formed from different words but expressing the same meaning. The table presented for each group in the article lists commonly used phraseological units and the meanings they express.

***Key words**: phraseological units, common language, Turkic languages, semantic identity, Oghuz group*

ФОРМООБРАЗУЮЩИЕ И СМЫСЛОВЫЕ ХАРАКТЕРИСТИКИ РАСПРОСТРАНЕННЫХ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ ТЮРКСКИХ ЯЗЫКОВ (НА АЗЕРБАЙДЖАНСКОМ, ТУРЕЦКОМ, ТУРКМЕНСКОМ ЯЗЫКАХ)

Шакар Мамедова
Доктор философии по филологии, преподаватель
АГПУ, Тюркологический центр
Баку, Азербайджан
shakarmammadova1986@gmail.com
Orcid: 0009-0005-5385-4733

Резюме

Свойство фоссилизации фразеологических единиц, состоящих не менее чем из двух слов, обеспечивает устойчивость входящих в их состав слов, неизменность их позиций и отсутствие замены входящих в них слов другими словами. Благодаря этой особенности фразеологизмы занимают важное место в словарном составе языка и не могут быть переведены на другие языки в чистом виде. Тюркские языки считаются одними из самых богатых фразеологией языков мира. Фразеологизмы, которые мы используем как в письменной, так и в устной речи, являются фактически неотъемлемой частью выражения. Фразеологические единицы, используемые для придания живости и образности высказываниям во всех жанрах литературы, являются весьма ценными элементами выражения, которые поэты и писатели не могут игнорировать. Фразеологические единицы, такие как пословицы, являются лучшим примером выражения большого смысла с помощью нескольких слов. В данной статье рассматриваются и изучаются некоторые общеупотребительные фразеологические единицы, используемые в азербайджанском, турецком и туркменском языках. Некоторые фразеологические единицы, распространенные в огузской группе тюркских языков, в современную эпоху продолжают использоваться в литературном языке азербайджанского, турецкого и туркменского языков. Эти

фразеологизмы демонстрируют значительное сходство с точки зрения звучания, формы, структуры предложения и словарного запаса. Интересно, что некоторые слова, образующие фразеологические единицы в туркменском языке, в азербайджанском и турецком языках употребляются с фонетическими различиями. Например, в то время как в некоторых идиомах туркменского тюркского языка есть удлинение гласных, в азербайджанском и турецком языках такое удлинение отсутствует: bel bağlamax (Азербайджан) - bi:l ba:ğlamak (туркменский) - bel bağlamak (турецкий). В то же время в начале слов в туркменском языке замена b>v не встречается: canını verməx` (Азербайджан) - ca:nını bermek (туркменский) - canını vermek (турецкий). Фразеологические единицы, демонстрирующие общность, по-видимому, разделяют основные значения, которые они выражают, независимо от различий в словах, из которых они состоят. Из следующих примеров: cin atına minmək (Азербайджан) - cınıñ atlanmak (туркменский) - cinleri başına toplanmak (üşüşmek) (турецкий); bəxti dönmək, bəxti çönmək (Азербайджан) - bağtıñ ba:ğlanmak (туркменский) - bahtı kapanmak (турецкий), видно, что структурная логика фразеологизмов одинакова. В статье идиомы, имеющие сходство в азербайджанском, турецком и туркменском языках, были выявлены с точки зрения звучания, формы и выражаемого ими значения и рассмотрены в трех группах:1) фразеологизмы, состоящие из одних и тех же слов и выражающие одно и то же понятие, несмотря на звуковые различия; 2) фразеологические единицы, выражающие одно и то же значение с помощью одних и тех же слов, но разных суффиксов; 3) фразеологизмы, образованные от разных слов, но выражающие одно и то же значение. В таблице, представленной для каждой группы в статье, перечислены употребительные фразеологические единицы и значения, которые они выражают.

***Ключевые слова**: фразеологические единицы, общий язык, тюркские языки, семантическая идентичность, огузская группа*

Annotasiya. Məqalədə oğuz qrupu türk dillərində ortaq şəkildə işlədilən frazeoloji vahidlər tədqiq olunmuşdur. Tədqiqata cəlb olunan frazeoloji vahidlərin türk dillərində fonetik, leksik və morfoloji dəyişikliklərlə eyni mənada işləndiyi müşahidə edilir. Türk dillərində frazeoloji vahidlərin üst-üstə düşməsində mənbə baxımından eyni qrupda olmaqdan əlavə, əsrlər boyu xalqların öz aralarında qurduğu iqtisadi və mədəni əlaqələr, din və siyasət baxımından məruz qaldıqları xarici təsirlər də mühüm amillərdəndir.

Aktuallıq. Dili təmsil edən xalqın dünyagörüşünü, təfəkkürünü, yaşayış tərzini özündə əks etdirən frazeoloji vahidlərin tədqiqi həmin xalq və onun dili haqqında məlumat verir. Müxtəlif coğrafiyalarda yaşamalarına baxmayaraq türklər öz dillərində frazeoloji vahidlərdə ümumi cəhətləri qoruyub saxlamışlar. Ortaq şəkildə işlədilən frazeoloji vahidlərin araşdırılması türk dillərinin tədqiqi baxımından aktual məsələlərdəndir. Azərbaycan, Türkmən və Türk dillərində ortaqlıq təşkil edən frazeoloji vahidlərin əksəriyyətinin tam eyni olması, bəzən də ortaq mənalar şəklində işlədilməsi dillər arasında bağlılığı bir daha sübut edir.

Metod. Məqalədə tarixi-müqayisəli və qarşılaşdırma metodlardan istifadə olunmuşdur.

Giriş. Bu gün tarixi və siyasi səbəblərlə meydana çıxan bir çox türk dialektləri və ya yazı dili istifadə olunan Türk dünyasında, bu dialektlər və yazılı ədəbi dili müxtəlif cəhətlərinə görə bir-birindən az və ya çox dərəcədə fərqlənir. Frazeologiya bu baxımdan ən diqqətçəkən hissəni təşkil edir. Türk dillərinin hər birinin özünəməxsus frazeoloji vahidlər – deyimlər xəzinəsi var. Lakin bu deyim xəzinələri müəyyən dərəcədə "əsas dialekt" səviyyəsindədir; "Ümumi türkcə" səviyyəsində daha az dərəcədə bir-biri ilə üst-üstə düşürlər. Türk dillərində frazeoloji vahidlərin üst-üstə düşməsində mənbə baxımından eyni qrupda olmaqdan əlavə, əsrlər boyu xalqların öz aralarında qurduğu iqtisadi və mədəni əlaqələr, din və siyasət baxımından məruz qaldıqları xarici təsirlər də mühüm amillərdəndir. "Türk ləhcələrinin lüğət tərkibinin oxşarlığı və üst-üstə düşməsində qaynaq baxımından eyni qrupda olmaqdan əlavə, tarix boyu topluluqlararasında köç və qarışma da; qurduqları iqtisadi və mədəni əlaqələri; din və siyasət baxımından məruz qaldıqları yad təsirlər də mühüm rol oynamışdır" [1, 215].

Frazeoloji vahidlər, ümumiyyətlə, ən azı iki sözdən ibarət olan və komponenetləri öz hərfi mənalarından az-çox uzaqlaşaraq məcazi məna kəsb edən ifadələr toplusudur. Sabitlik xüsusiyyətinə malik olan bu birləşmələri təşkil edən sözlərin yerini dəyişməməsi və ya bu sözlərin

yerinə başqa sözlərin işlədilməməsi də bu dəyişməzliyə gətirib çıxarmışdır. Frazeologizmlərin bu xüsusiyyəti onlardan müqayisəli qrammatika tədqiqatlarında tez-tez istifadə etməyə imkan verir. Az sözlə çox şeydən xəbər verən söz və ya söz qrupları olan frazeoloji vahidlər həm də yaşadığı cəmiyyətin sosial quruluşunu, adət-ənənəsini, davranış nümunələrini, həyata baxışını, bir sözlə mədəniyyətini əks etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. "Məsələn, "kiməsə vəziyyət, iş və s. qarşısında fürsət və ya vaxt verməmək" kimi uzun sözlərlə ifadə olunan vəziyyəti "göz açdırmamaq" ifadəsi ilə qısa və çevik şəkildə ifadə etmək mümkündür. Deyimlər danışığa harmoniya, rəng, canlılıq və cazibə qatır. Bu və digər xüsusiyyətlər deyimlərdən tez-tez istifadə etmək imkanı yaratmışdır" [2, 757-758]. Frazeoloji vahidlər əmələ gəlməsi prosesi də birdən -birə yox, müəyyən zaman çərçivəsində baş verir və müxtəlif mərhələlərdən keçərək dildə sabit forma halına düşür: "Onu da deyək ki, frazeoloji vahidlərin əmələ gəlməsi müxtəlif mərhələlərlə bağlıdır. Bu mərhələlər uzun bir inki şaf dövrünü əhatə edə bilər. Bir sıra frazeoloji vahidlər isə belə bir uzun müddətli mərhələlərdən keçmədən nitqdə bir başa yaranır və ilkin dövrdə okkazional xarakter daşıyır, yalnız bir qədər sonra ümumişlək dil vahidinə çevrilir. lakin heç də bütün frazeoloji vahidlər qısa vaxt ərzində yarana bilmir" [3, 43-44].

Türk dillərinin frazeoloji vahidləri çox zəngin və rəngarəng üslub imkanlarına malikdir. Onların hər biri bu və ya digər şəkildə nitqdə müəyyən üslub funksiyasına malikdir. "Türk dillərində mövcud olan frazeoloji vahidlərin böyük əksəriyyəti prototip situasiya ilə bağlı meydana gəlmişdir. Yəni, türk dillərində işlənən bu frazeoloji vahidlərin arxasında real həyat hadisələri – prototip situasiyalar dayanır. Lakin bu dillərdə işlənən frazeoloji vahidlərin hamısının hansı prototip situasiyalar zamanı yarandığını, bu frazeoloji vahidlərin arxasında hansı real həyat hadisələrinin dayandığını izah etmək mümkün deyildir" [4, 2, 8]. Eyni zamanda, bu cür ifadələrdə çox yüksək səviyyədə obrazlılıq, emosiya var. Ona görə də nitqdə məharətlə işlənən ifadələr çox vaxt nitqi daha mənalı edir, ona xüsusi emosionallıq verir. Frazeoloji vahidlərdə məcazilik onları təşkil edən bu və ya digər sözün obrazlı işlənməsi nəticəsində yaranır. "Frazeoloji vahidlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasındadır. Belə ki frazeoloji vahidlər dilin ekspressivliyində, onun emosionallığında xüsusi rol oynayır. Frazeoloji vahidlər bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir" [5, 359]. Həyat təcrübələrini müxtəlif metaforalarla ifadə edən frazeologizmlər stereotip kimi işlədilmiş və günümüzə qədər gəlib çatmışdır. Metaforalar fikirlərin canlı və təsirli ifadəsinə xidmət edir ki, bu da frazeoloji vahidlərin əsas xüsusiyyətlərindən biridir. Azərbaycan, Türk və Türkmən dilləri üçün ortaq olan bir çox frazeoloji vahidlər metaforik xüsusiyyətlərə malikdir: qulaq asmaq – gulak salmak – kulak vermek; ürəyi ağzına gəlmək - yüreği ağzına gelmek, yüreğiñ ağzıñdan çıkıp barmak, yüreğiñ ağzıñdan çıkmak-yüreği ağzına gelmek; kefinə dəymək, kefinə soğan doğramaq, keypini bozmak (gaçırmak), (birinin) keyfini kaçırmak (bozmak) ve s.

Türk dillərinin oğuz qrupunda frazeoloji vahidlər bir-birinə çox yaxın olsa da, frazeologiya və frazeoloji vahid terminləri müxtəlif sözlərlə ifadə olunur. Azərbaycan dilində "frazeologiya", "frazeoloji vahidlər", türkcə "deyim", "tabir", Türkmən dilində "frazeologizm", "durnukly söz düzümleri", qaqauz dilində "bölünmez laf birleşmesi", "frazeologizma" kimi ifadə olunur. [6, 73]

XIII əsrə qədər ortaq yaşayış sahəsinə malik olan oğuz tayfaları XIII əsrdən sonra müxtəlif tarixi hadisələr nəticəsində müxtəlif coğrafiyalarda yaşasalar da, onların deyimlərində ümumi cəhətlər və bəzi deyimlərdəki sözlər fərqli olsa da, deyimin formalaşması məntiqi eynidir. Eyni coğrafiyada ümumi həyat təcrübələrinin dilə əks olunması nəticəsində yaranan deyimlər dildə çox fəal tarixi həyatın əksi kimi özünü göstərmişdir. Tarixi inkişaf nəticəsində frazeoloji vahidlərin bir qismi dəyişən ictimai həyat, texniki inkişaf və qarşılaşılan mədəniyyətlər səbəbindən istifadədən düşmüş, bəziləri isə ya olduğu kimi, ya da dəyişikliyə uğrayaraq günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan və Türkmən dillərindəki frazeoloji vahidlər tərkibinin sabitliyinə, yəni tərkibini təşkil edən sözlərin dəyişməzliyinə görə sabit ifadələr adlanır. "Sabit söz birləşmələri əsrlər boyu yaranmış dil və təfəkkürün məhsuludur, leksik cəhətdən bölünmür, tərkibinə və quruluşuna görə sabit xassələrə malikdir, mənaca tamlığı ilə seçilir. Beləliklə, leksik cəhətdən ayrılmaz, tərkib və

quruluşa görə sabit, məna bütövlüyünü qoruyan sözlərin birləşməsinə sabit frazeoloji vahidlər deyilir" [7, 239].

Frazeoloji vahidlər haqqında olan linqvistik baxışların müxtəlifliyi, bəzən hətta ziddiyyətliliyi türk dillərində bu ifadələrin qrammatik təhlilinin verilməsini, onların əmələgəlmə yollarının, eləcə də tarixi inkişafının aydınlaşdırılmasını, quruluş və mənalarının oğuz qrupu türk dillərinə məxsus zəngin dil nümunələri əsasında tarixi-müqayisəli təhlil və tədqiq olunmasını şərtləndirir. "Şübhəsiz, fonetika, morfologiya, sintaksis və leksika ilə yanaşı əcdad dildən miras qalmış qohumluq əlamətləri dilin frazeologiyasında da özünü göstərə bilər. Lakin frazeologiyanın özünəməxsusluğundan irəli gələn bir çox sə bəblərə görə dillərin müəyyən qrupunda ən qədim frazeoloji fondun əmələ gətirilməsi olduqca çətindir, bir çox hallarda isə, bəlkə də qeyri-mümkündür. Buna görə də, zənnimizcə, ilkin olaraq əcdad dilin frazeologiyasını bərpa etməyə xidmət göstərən tarixi-müqayisəli cəhət deyil, sinxron plan da qohum dillərin malik olduğu ümumi və fərqli xüsu siyyətləri üzə çıxaran müqayisəli-qarşılaşdırma ön plana çə kilməlidir" [8, c.274]

Türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan, Türk və Türkmən dillərində ortaq olan bəzi frazeoloji vahidlər kiçik fonetik fərqlər istisna olmaqla forma və deyimin ifadə etdiyi əsas anlayışlar baxımından heç bir dəyişikliyə uğramadan günümüzə qədər gəlib çatmışdır, bəziləri frazeologizmin ifadə etdiyi əsas anlayışları qoruyub saxlamış, lakin söz və ya şəkilçilərin qismən dəyişdiyi görünür. Azərbaycan, Türkmən və Türk dillərində işlənən bəzi frazeoloji vahidlər forma və lüğət baxımından ortaq olsa da, deyimlərin daşıdıqları əsas məfhum baxımından hər üç yazılı dildə fərqli anlayışlar ifadə etdiyi açıq şəkildə nəzərə çarpır. Bu məqsədlə bu araşdırmada Azərbaycan, Türk və Türkmən dillərində ortaqlıq göstərən deyimlər ifadə etdikləri səs, forma və məna baxımından müəyyən edilərək üç qrupda araşdırılıb: 1) səs fərqlərinə baxmayaraq eyni sözlərdən ibarət olub eyni anlayışı ifadə edən frazeoloji vahidlər; 2) sözləri eyni, lakin müxtəlif şəkilçilərdən istifadə etməklə eyni mənanı ifadə edən frazeoloji vahidlər; 3) müxtəlif sözlərlə əmələ gələn, lakin eyni mənanı ifadə edən frazeoloji vahidlər.

1. Səs fərqlərinə baxmayaraq eyni sözlərdən ibarət olub eyni anlayışı ifadə edən frazeoloji vahidlər

Qərbi Oğuz qrupunda olan Azərbaycan və Türk dili ilə Şərqi Oğuz qrupunun Türkmən dili arasında bəzi fonetik fərqliliklər frazeoloji vahidlərdə də nəzərə çarpır. Məsələn, Türkmən dilində sözün əvvəlindəki b səsi öz ilkin formasını saxlamış və b>v dəyişikliyi olmamışdır: barmaq - varmak, bermək – vermək. Türkmən dili prototürklərin ilkin uzun saitlərini böyük ölçüdə qoruyub saxlamışdır: a:t – ad, ca:n – can. Bundan əlavə, Azərbaycan dilində bəzi səslər Türk və Türkmən dilindən fərqlənir. Məsələn, Azərbaycan dilində q və x (x`) samitlərinin olması bəzi səsləri digər türk dillərindən fərqləndirir: qəm – gam, yuxu – uky – uyku, bükülməx`- bükülmek.

Təməl məntiqi və ifadə etdikləri əsas məna baxımından Azərbaycan, Türkmən və Türk dillərində işlənən bəzi frazeoloji vahidlərin ortaq sözlərdən ibarət olduğu görünür. Bu qrupda frazeologizmlər səs quruluşu və ifadə etdikləri əsas anlayışlar baxımından ortaq bir xüsusiyyətə malikdir və eyni zamanda bəzi frazeologizmlər yuxarıda qeyd etdiyimiz fonetik dəyişikliyə məruz qalsa da, onların ifadə etdiyi əsas məna baxımından ortaq bir xüsusiyyətə malik olduğu görünür. "Bu grupta deyimleri oluşturan sözcükler ses yapısı ve belirttikleri temel kavramlar yönü ile ortak bir özellik taşır" [9, 97]. Bu qrupda müəyyən etdiyimiz frazeoloji vahidlər Azərbaycan dilinin izahlı lüğəti, Türkmen dilinin düşüdirişli sözlügi və Türkçe sözlük [10, 11, 12] lüğətlərindən nümunələr seçilərək aşağıdakı cədvəldə verilmişdir:

Cədvəl 1

Azərbaycan dilində	Türkmən dilində	Türk dilində	Frazeoloji vahidin mənası
ad almax	a:t almak	ad almak	yaxşı işinə görə şöhrətlənmək
ayax basmax	ayak basmak	ayak basmak	gəlmək, daxil olmaq

baş əyməx'	baş eğmek	baş eğmek	tabe olmaq, kiminsə iradəsini qəbul etmək
bel bağlamax	bi:l ba:ğlamak	bel bağlamak	güvənmək, inanmaq, etibar etmək, arxalanmaq
beli bükülməx`	bi:li bükülmek	beli bükülmek	1. qocalmaq 2. ağır müsibət, bədbəxtlik üz vermək, bədbəxtliyə düçar olmaq
boyun əyməx`	boyun eğmek	boyun eğmek	tabe olmaq, itaət etmək, alçalmaq, təslim olmaq
burnunu soxmax	burnuñı sokmak	(bir işe) burnunu sokmak	lazım olmadan hansısa işə qarışmaq
burnundan gətirməx`	burnuñdan getirmek	burnundan getirmek	haram eləmək, əhvalını korlamaq
canını almax	ca:nını almak	canını almak	öldürmək, məhv etmək
canını verməx`	ca:nını bermek	canını vermek	fədakarlıq etmək
cəfa çəkməx`	cepa: çekmek	cefa çekmek (görmek)	əzab-əziyyət çəkmək, çətinliyə düşmək
dan atmax, dan yeri ağarmax	dañ atmak dañ a:ğarmak dañ sa:z bermek	tan ağarmak (atmak, sök mek)	tədricən işıqlanmaq, səhər açılmaq, sübh açılmağa başlamaq, səhər tezdən üfüqdə qızartı görünmək
tər tökməx`	der dökmek (saçmak)	ter dökmek alın teri dökmek	1. bir şeyi əldə etmək üçün çox çalışmaq, çapalamaq, çox əlləşmək, çox zəhmət çəkmək. 2. utanmaq
dünyaya gəlməx`	dünyä: gelmek (inmek) äleme inmek	dünyaya gelmek	doğulmaq, anadan olmaq
qəm çəkməx`(yeməx`)	gam çekmek (basmak)	gam çekmek	nəyisə özünə dərd etmək
qanı qaynamax	ga:nı gaynamak	(birinin) kanı kaynamak	doğma bilmək, çox bəyənmək
könül verməx` (bağlamax)	gövün bermek	gönül vermek	aşiq olmaq, vurulmaq, ürəkdən sevmək
gözdən düşməx`	gözden düşmek	gözden (gözünden) düşmek	əvvəlki hörmətini itirmək, sayılmamaq
gözü yolda qalmax gözü yollara baxmax	gözi yolda bolmak gözi yolda galmak	gözü yolda (yollarda) kalmak (olmak)	kiminsə gəlişini intizarla gözləmək
göz yummax	göz yummak	göz yummak	ciddi əhəmiyyət verməmək, nəzərə almamaq, boş buraxmaq, güzəştə getmək
qulağ asmax	gulak asmak	kulak asmak	dinləmək, deyilənə əməl etmək, deyiləni qəbul etmək, fikir vermək
xəbər almax	habar almak	haber almak	soruşmaq, bilmək istəmək
heyran qalmax (olmax)	hayran galmak	hayran olmak (kalmak)	təəccüblənmək
kefini pozmax (qar)	keypini bozmak (gaçırmak)	(birinin) keyfini kaçırmak (bozmak)	dilxor etmək
məskən tutmax	mesğen tutmak	mesken tutmak	bir yerdə yaşamağa başlamaq, yurd, yurd-yuva salmaq
nazını çəkməx`	nä:zini çekmek	(birinin) nazını çekmek	əzizləmək, əziyyətinə, şıltaqlığına dözmək, hər istəyinə əməl etmək
nök'tə qoymax	nokat goymak	nokta koymak	bitirmək, qurtarmaq, tamamlamaq
rəva görməx` (bilməx`)	rova: görmek (bilnek, kılmak, eylemek)	(bir davranışı birine) reva görmek	münasib, uyğun saymaq, layiq bilmək

yuxusu qaçmax	u:kusı gaçmak	uykusu kaçmak	yata bilməmək, yuxuya gedə bilməmək, yuxusu pozulmaq
yola çıxmax	yola çıkmak	yola çıkmak	getməyə başlamaq, səfərə çıxmaq
yolunu kəsməx`	yo:lunı kesmek	yolunu kesmek	irəliləməsinə, inkişafına mane olmaq
ürəyi ağzına gəlməx`, ürəyi qopmax	yüreği ağzına gelmek, yüreğiñ ağzıñdan çıkıp barmak, yüreğiñ ağzıñdan çıkmak	yüreği ağzına gelmek	bərk qorxmaq, qorxu hissi keçirmək;
üzə çıxmax	yüze çıkmak	yüze çıkmak	1.aşkarlanmaq, bilinmək; 2. daha gizlənməyib açıq yaşamağa başlamaq
zəhmət çəkməx`	zähmet çekmek	zahmet çekmek	əmək sərf etmək, çalışmaq, əməksevər olmaq

2. Sözləri eyni, lakin müxtəlif şəkilçilərdən istifadə etməklə eyni mənanı ifadə edən frazeoloji vahidlər

Bu qrupda frazeoloji vahidləri yaratmaq üçün istifadə edilən sözlərin Azərbaycan, Türk və ya Türkmən dilində ifadə olunması üçün nəzərdə tutulan ortaq məfhumun müxtəlif şəkilçilərlə frazeologizmləri əmələ gətirdiyi görülür. Burada Azərbaycan və Türk dili bir-birinə yaxınlıq təşkil edir. Azərbaycan və Türk dilində frazeoloji vahiddə ifadə olunan mühakimə daha çox 3-cü şəxs təkinin yiyəlik şəkilçisi ilə göstərilir. Türkmən dilində sözügedən vəziyyət ikinci şəxs təkinin yiyəlik şəkilçisi ilə ifadə edilir. Eyni zamanda Azərbaycan və Türk dilindəki frazeoloji vahidlərdə ifadə olunması nəzərdə tutulan mənfi məna "- ma" inkar şəkilçisi və məsdər şəkilçisi "-mak" ilə ifadə olunarkən, bu vəziyyət Türkmən dilində "-maz" inkar şəkilçisinə "+lık/+luk" addan ad düzəldən şəkilçiləri əlavə edilməklə ifadə edilir. Bu qrupda araşdırmaya cəlb edilmiş frazeoloji vahidlər aşağıdakı cədvəldə verilmişdir:

Cədvəl 2

Azərbaycan dilində	**Türkmən dilində**	**Türk dilində**	**Frazeoloji vahidin mənası**
bağrına basmax	bağra basmak	bağrına basmak	məhəbbətlə, nəvazişlə qucaqlamaq, ürəklə görüşmək
bəxti açılmax	bağtıñ açılmak	bahtı açılmak	işləri uğurlu olmağa başlamaq, uğur əldə etmək
candan keçməx`, canından keçməx`	ca:ndan geçmek	canından geçmek	bir şey uğrunda özünü fəda etmək, yolunda ölümə getmək
canı yanmax	ca:nıñ yanmak	canı yanmak	istəmək, acımaq
dili tutulmax	diliñ tutulmak	dili tutulmak	1. təəccüb, heyrət içində qalıb danışa bilməmək 2. danışıq qabiliyyətini itirmək
əli gəlməx`	elden gelmek	elinden gelmek	qıymaq, rəva görmək
əlindən tutmax	elden tutmak	elinden tutmak	yardım göstərmək, maddi kömək etmək
qaşlarını çatmax, qaşları çatılmax (düyülməx`)	ga:ş çıtmak (tapışmak)	kaşlarını çatmak	dərin fikrə dalaraq, yaxud hiddətlənərək qaşlarını yığmaq
könlünü almax	gövnüni almak	gönül (gönlünü) almak	incimiş bir adamı ovutmaq, sakitləşdirmək, incikliyini unut-durmağa çalışmaq, yumşaltmaq, acığını unutdurma
göz dəyməx`	göz değmek	gözü değmek	inanca görə, kiminsə baxışından ziyan

			çəkmək, zərər görmək
göz dix`məx`	göz dikmek	gözünü (gözlerini) (bir şeye) dikmek	1. Bir şeyi ələ keçirmək arzusunda olmaq, sahib olmağa çalışmaq 2. Yeganə ümid yeri olmaq, arxayın olmaq 3. Diqqətlə baxmaq
gözü doymamax	gözüñ doymazlık	gözü doymamak	1. Həris olmaq, tamah-karlıq eləmək, hər şeydə gözü qalmaq 2. Baxmaqdan doyma-maq, ürəyinə yatdığı bir şeyi və ya bir kəsi arzulamaq
gözünü qorxutmax (qorxuzmax)	gözüni gorkuzmak	(birinin) gözünü korkutmak	qorxmağa, çəkinməyə məcbur etmək, hədələmək
iştahası açılmax	işdä: açılmak	(birinin) iştahı açılmak	iştahası artmaq, iştahalanmaq, yemək istəmək
işhahası küsməx` (bağlammax, pozulmax, tutulmax)	işdä:si kesilmek	iştah kapamak (kesmek)	bu və ya başqa bir səbəb üzündən yemək istəməmək, ürəyi heç bir şey istəməmək
işi düşməx`	i:şiñ düşmek	işi düşmek	kiməsə ehtiyacı olmaq, müraciət, xahiş etmək zərurəti yaranmaq
sözünü kəsməx`	sözi kesmek	sözünü kesmek	danışmağa, fikrini bitir-məyə imkan verməmək
yoluna qoymax (salmax)	yo:la goymak	yoluna koymak	nizamlamaq, yerbəyer etmək, sona çatdırmaq, birdəfəlik həll etmək
yolu düşməx`	yo:luñ düşmek	(bir yere) yolu düşmek	getməyə başlamaq, səfərə çıxmaq

3. Müxtəlif sözlərlə əmələ gələn, lakin eyni mənanı ifadə edən frazeoloji vahidlər

Texnologiya sahəsində inkişaf, sosial strukturlar və dəyər mühakimələrindəki dəyişikliklər illərdir stereotipləşən ifadələrin dəyişməsinə səbəb olub. Eyni zamanda, bu diferensiallaşmada dəyişən həyat tərzi, onların təsir etdiyi mədəni fokuslar, həyat təcrübələri, psixoloji amillərin və s. də təsiri var. Bu qrupda müəyyən etdiyimiz ümumi frazeologizmlərin əksəriyyətində bu dəyişikliyi aydın şəkildə görürük. Azərbaycan, Türk və Türkmən dilində ortaqlıq göstərən frazeoloji vahidlər onları təşkil edən sözlərin ədəbi dildə bir-birindən fərqləndiyi görünür. Bəzi frazeoloji vahidlər hər üç dildə fərqlidir, digərləri isə iki dildə ortaq sözlərlə, bir dildə isə fərqli sözlərlə ifadə edilir. Bu qrupda müəyyən etdiyimiz frazeoloji vahidlər bunlardır:

Cədvəl 3

Azərbaycan dilində	**Türkmən dilində**	**Türk dilində**	**Frazeoloji vahidin mənası**
ağızdan-ağza keçməx` (söylənməx`, deyilməx`, dolaşmax)	ağızdan-ağza geçmek (yayramak)	ağızdan ağıza dolaşmak (veya geçmek)	səsi-sorağı hər yana yayılmaq, məşhurlaşmaq, şöhrətlənmək
ağzına gələni deməx`	ağzına a:k-da: gelse diymek, gara-da gelse ağza geleni otarmak (urmak)	ağzına geleni söylemek	bərk danlamaq, töhmətlən-dirmək, biabır etmək, söymək
ağzınnan vurmax	ağzından almak	sözü ağzından almak	danışığını davam etdir-məyə qoymamaq, susdur-maq, sözünü yarıda kəsmək
ağzınnan qaçırmax (çıxmax)	ağzından sıpdırmak	ağzından kaçırmak	gizli saxlanılan bir şeyi bilmədən demək, istəmə-dən, fikirləşmədən,

			qeyri-ixtiyari bir sözü dilinə gətirmək
ağzını ara(la)max	ağzını ı:sğamak	ağzını aramak (yokla-mak)	birinin fikrini, məqsəd və niyyətini, mövqeyini öyrənməyə cəhd eləmək
ağlı başınnan çıxmax (getməx`)	başından hu:şı uçmak	aklı başından gitmek	1. dəli olmaq, səfehləmək 2. bərk hirslənmək 3. məftun olmaq, vurul-maq, valeh olmaq
ağlı kəsməx`, ağlına çatmax	akılı çatmak (yetmek)	aklı ermek	1. inanmaq, mümkün hesab etmək 2. dərk etmək, anlamaq
ayağndan çəkməx`, ayağının altını qazmax, quyu qazımax	ayağınıñ astını gazmak (kövmek)	(birinin) kuyusunu kazmak	mane olmaq, paxıllıq etmək
bağrını dəlməx`, bağrı-nı qana döndərməx`	gara bağrıñı da:ğlamak gara bağrıñı dilmek	bağrını delmek, bağrını ezmek	dərindən kədərləndirmək, sarsıtmaq, dərddən üzmək, həddən artıq kədərlən-dirmək
başına çarə qılmax	başını çaramak	başının çaresine bakmak	çətin vəziyyətdən çıxış yolu axtarmaq, tədbir görmək
başına iş (qəza) gəlməx`, başına qiya:mət qopmax	başıña bela satın almak	belayı satın almak	müsibətlə qarşılaşmaq, xoşagəlməz hadisə baş vermək
başqasının ağzı ilə oturup-durmax	ağza bakmak	(birinin) ağzının içine bakmak	öz fikri olmamaq, başqasının sözü ilə hərəkət etmək
bəxti dönməx`, bəxti çömməx`	bağtıñ ba:ğlanmak	bahtı kapanmak	uğursuzluğa məruz qalmaq, işləri getdikcə pisləşmək, həyatında çətin və ağır dövr başlamaq
bir daşla iki quş vurmax	bir okta iki tovşan a:vlamak	bir taşla iki kuş vurmak	bir dəfə zəhmət çəkməklə iki iş görmək, bir cəhdlə iki işi gerçəkləşdirmək
bir əli yağda, bir əli bağda (olmaq)	bir eli yağ bir eli bal tutmak	bir eli yağda bir eli bal da (olmak)	maddi vəziyyəti yaxşı olmaq, bolluq içində olmaq
bir qulağından girib o biri qulağından çıxmax	bir gulağından girip, beyleki gulağından çıkmak	bir kulağından girip öbür kulağından çık-mak	deyilənə əhəmiyyət verməmək, saymazlıq göstərmək
burnunu yuxarı tutmax	tumşuğıñı göööğe (yokarı, asma:na) tutmak	burnu havada (olmak)	təkəbbürlü olmaq, lovğalanmaq
cilovda saxlamax, cilovu əlində olmax, cilovunu əlində saxlamax	cılavıñı eline bermek, cılavıñı bermek	yuları ele vermek (kap tırmak)	tabeliyində, öz ixtiyarında saxlamaq, sahib olduğu şeyi möhkəm qorumaq
cin atına mimməx`, cin başına (beyninə, təpəsinə) vurmax,	cınıñ atlanmak	cinleri başına toplan-mak (üşüşmek) cinleri ayağa kalkmak	həddindən artıq əsəbi-ləşmək, bərk hirslənmək
kəm baxmax	çep göz bilen garamak (seretmek)	kem gözle bakmak	pis nəzərlə baxmaq, bədxahcasına yanaşmaq
dara çəx`məx`, dar ağacından asmax	da:ra çekmek	darağacına çekmek	çətinliyə salmaq, sıxış-dırmaq, sorğu-sual etmək, cəzalandırmaq
dibinə daş atmax	düybüne aşık atmak	dibine darı ekmek	bir şeyi qurtarmaq, məhv etmək, tamamilə axırına çıxmaq, israfçılığa yol vermək
dildə-ağızda gəzməx`,	dile-ağza düşmek, i:le	dile (dillere) düşmek	kiminsə, nəyinsə haqqında hər

dilə-ağıza düşməx`, dillərə düşməx`, dillərdə gəzməx` (dolaşmax)	gep-gürrüñ bolmak		yerdə danışılmaq, geniş dairədə tanınmaq, məşhur olmaq
dilinin ucuna gəlməx`	diliñe gelmek	dilinin ucuna gelmek	söyləmək istədiyi bir ifadəni deməkdən çəkin-mək, özünü saxlamaq.
dilini kəsməx`	diliñi çekmek	dilini kesmek (kesip oturmak).	usmağa məcbur etmək, susdurmaq.
dünya (gen dünya) başına daralmax (dar olmax)	ä:lemi da:ralmak	dünya başına yıkılmak	sarsıntı keçirmək, böyük kədər, fəlakət üz vermək
əcəli gəlməx` (çatmaq, tamam olmaq, yetmək)	acalı yetmek	eceli gelmek	ölüm vaxtı yaxınlaşmaq, ölüm vaxtı çatmaq; ölüm axtarmaq, ölümlə nəticələnə biləcək hərəkətlər etmək
əlinnən tutmax	golundan götermek golunı tutmak	elinden tutmak	yardım göstərmək, maddi kömək etmək;
əlinə düşməx`	gola düşmek	eline düşmek	kiminsə ixtiyarına keçmək
fikrə qərq olmax, fikir dəryasına qərq olmax, fikir götürməx`, fikrə dalmax	pikir derya:sına gark bolmak, pikir derya:sında yüz-mek, pikire batmak, pikire çümmek, pikire düşmek, pikire gitmek, pikire münmek, pikir kölünde yüzmek, pikir kölüne batmak, pikir kölüne çümmek	düşünceye dalmak	qayğılanmaq, narahatlıq keçirmək, bir məsələ ilə bağlı dərindən düşünmək
fürsət tapmax	pursat tapmak	fırsat bulmak	uyğun, əlverişli zaman tapmaq
göz açıp yumunca, göz qırpımında, göz açıb yuman saatda	göz açıp yuması salımda	göz açıp kapayıncaya kadar	bir anda
gözdən düşməx`	i:liñ gözünden düşmek	gözden (gözünden) düşmek	əvvəlki hörmətini itirmək, sayılmamaq
göz yummax	göz yumup geçmek	(bir şeye) gözünü yummak	ciddi əhəmiyyət vermə-mək, nəzərə almamaq, boş buraxmaq, güzəştə getmək
günü başa vurmax	gününi geçirmek	gününü doldurmak	adətən, əhəmiyyətsiz bir işlə məşğul olaraq günü tamamlamaq, veyillənmək
xeyir-dua verməx` (eləməx`)	a:k pa:ta: bermek	hayır dua etmek	səadət, xoşbəxtlik arzu-lamaq, uğurlar diləmək.
iki ayağını bir baş-mağa diräməx` (təp-məx`)	iki ayağıñı bir yere depip durmak	ayak diremek	öz fikrindən, dediyindən dönməmək,inadkar olmaq, tərslik etmək
iynə ilə gor qazmax	iññe bilen guyı gazan yalı	iğne ile kuyu kazmak	çox böyük zəhmət və əziyyət tələb edən çətin, ağır işlə məşğul olmaq
izinə düşməx`	ı:zına düşmek	(birinin, bir işin) ardına (arkasına) düşmek	bir olayla bağlı ilkin və vacib məlumatları öyrənərək axtarışlara başlamaq, araşdırma aparmaq
kök salmax	kök urmak	kök salmak	1. Bir yerdə məskən salmaq, bərkimək, yerini möhkəm eləmək, daimi yerləşmək

			2. Möhkəmlənmək, ürək-lərdə özünə yer eləmək, yaşamaq, unudulmamaq
kökünü yer üzündən kəsməx`, kökünü qazımax	köküne palta urmak tohumını kesmek köküne kibrit suyu dökmek	köküne kibrit suyu dökmek (kökünü ku rutmak), kökünü kazımak	tamamilə, yerli-dibli məhv etmək, yox etmək.
könül verməx` (bağlamax)	yürek bermek	gönül vermek	aşiq olmaq, vurulmaq, ürəkdən sevmək
qan ağlamax	ga:n a:ğlamak (yığla-mak, eñremek)	içi kan ağlamak	zülm, əzab çəkmək
qan başına (beyninə) vurmax (sıçramax)	ga:nı depesine beynisi-ne, kellesine) urmak	cinleri (cin) tepesine çıkmak (binmek)	son dərəcə qəzəblənmək
qanad altına almax	ga:nat astına almak, ga:nat aşa:ğında (astında) saklamak (gizlemek)	(birini) kanadı altına almak	himayə etmək, qorumaq
qədəm basmax (qoymax)	gadam basmak (goymak, urmak)	adım (adımını) atmak	gəlmək, daxil olmaq
qulağ asmax	gulak salmak	kulak vermek	1. dinləmək 2. deyilənə əməl etmək, deyiləni qəbul etmək, fikir vermək
qulağına dəyməx`	gulağa değmek gulağa i:lmek	kulağına gelmek	ötəri eşitmək
murada (muradına) çatmax (yetməx`)	mıra:dıña yetmek mıra:dıñ ha:sıl bolmak	murada (muradına) ermek	istəyi, niyyəti həyata keçmək, arzuları gerçəkləşmək
ömrünü çürütməx`	gül ömrüñi köydürmek gül ömrüñi kül etmek	ömür çürütmek	1. həyatı boyu fiziki işlə məşğul olmaq 2. heç bir faydalı işlə məşğul olmamaq, vaxtını boş-boşuna keçirmək
rəngi qaçmax, rəngi üzünddən götürülməx`	gül meñzi saralmak, gül meñziñ solmak, yüzüñde reñk-pet galmazlık	beti benzi atmak (sol mak, uçmak, , kül kesilmek, kireç kesil-mek)	qorxudan, həyəcandan və s.-dən rəngi saralmaq, bənizi ağarmaq
saman altınnan su yeritməx`	sa:man altından suv goybermek	saman altından su yü-rütmek	zahirən sakit, fəaliyyətsiz görünsə də, gizlində öz işlərini görmək
səsini çıxartmamax, səsini içinə salmax (çəkməx`)	ses-üynüni çıkarmazlık	sesini çıkarmamak	qorxudan və s.-dən susmaq
söz gəzdirməx`	gep gezdirmek	laf taşımak	xəbərçilik eləmək
sözü uzatmax	gep(i) köpeltmek (ça:ğalatmak)	sözü uzatmak	uzun-uzadı danışmaq, uzunçuluq eləmək
sözü yerə düşməməx`	sözüni yere gaçır-mazlık	lafını yabana atmamak	xahişi, istəyi, arzusu, tələbi nəticəsiz qalmamaq, qəbul olunmaq, rədd edilməmək
tükləri biz-biz durmax (olmax), tükləri qabarmax (qalxmax, ürpərməx`)	depe saçıñ düyrükmek depe saçıñ sıh-sıh bolmak depe saçıñ üyşmek	(birinin) tüyleri diken diken olmak	bərk qorxmaq, vahimə, təşviş, qorxu hissi bürümək
uzun sözün qısası	gepiñ gısğa yeri	uzun lafın (sözün) kısası	xülasə, bir sözlə, müxtəsər, nəhayət.
ürəyi düşməx`(partdamax)	zähresi ya:rılmak	ödü patlamak (kop-mak)	qəfil, gözlənilməz xəbər və ya davranışdan bərk qorxmaq

ürəyini buz kimi saxlamax	gövnüñi gi:ñ tutmak	gönlünü serin tutmak	narahat olmamaq, arxayın olmaq, xatircəm olmaq
üz çevirməx` (döndər-məx`)	yüz övürmek	yüz çevirmek	küsmək, incimək, əlaqəni kəsmək, yaxınlıq etməmək
üzündə abır (həya, abır-həya) olmamax	yüzden perdä:ni sı:rmak yüzüniñ perdesi sı:rılmak	ar ve hayâ perdesi yır tılmak ar ve hayâ perdesi yır tılmak	həyasız, utanmaz, ədəbsiz olmaq
üzünü turşutmax	yüz turşatmak	yüzünü buruşturmak (ekşitmek)	narazılığını bildirmək, xoşlamadığını büruzə vermək;
yanaqlarınnan qan damır	yañaklarından ga:n damayın diymek	yanağından kan dam-lamak	sağlam, dolu, qırmızı-yanaq olmaq, gümrah olmaq
yarasını təzələməx`	yarasını gozğamak	yarasını deşmek	birinin dərdini yadına salıb pərişan etmək
yerinə yetirməx`	yerine yetirmek	yerine getirmek	icra etmək, gerçəkləş-dirmək
yuxuya getməx`	u:ka: batmak u:ka: gitmek	uykuya dalmak	yatmaq

Nəticə. Məlumdur ki, türklər müxtəlif coğrafiyalarda yaşasalar da frazeoloji vahidlərdə ümumi cəhətləri qoruyub saxlamışlar və bu ortaqlıq bəzən sözlərin tam eyni olması, bəzən də ortaq mənalar şəklində ortaya çıxır. Bu araşdırmada Azərbaycan, Türkmən və Türk dilindəki frazeoloji vahidlərin əksəriyyətinin ortaq mənalar daşıdığını görürük. Ümumi frazeoloji vahidlərdəki səs, şəkilçi və söz fərqləri onları ifadə etdikləri məna baxımından fərqləndirmir.

Frazeoloji vahidlər türklərin ortaq həyat təcrübələrinin dilə əks olunması nəticəsində formalaşmışdır. Bu kontekstdə deyə bilərik ki, Türk, Azərbaycan və Türkmən dilləri üçün ortaq frazeoloji vahidlərin böyük bir hissəsi oğuz boylarının XIII əsrə qədər yaşadıqları hadisələrin əksidir. Bu frazeologizmlərdə türklərin həyata baxış tərzi, hadisə və vəziyyətlərə münasibəti, mühakimələri açıq-aydın görünür və ortaq deyimlərdə deyimi təşkil edən sözlərin dəyişməz olaraq günümüzə qədər gəlib çatması da bunu sübut edir. Bundan başqa, rast gəlinən müxtəlif coğrafiyaların və fərqli mədəniyyətlərin təsiri altında bəzi ümumi frazeoloji vahidlər dəyişikliyə məruz qalmışdır.

Hər bir dil onu təmsil edən insanların mədəniyyətinin, dünyagörüşünün və dəyərlərinin güzgüsüdür. Bu baxımdan dil məhsullarını xalqın mədəniyyətindən və dəyərlərindən asılı olmayaraq qiymətləndirmək düzgün olmazdı. Frazeoloji vahidlər həm də formalaşdığı cəmiyyətin sosial quruluşunu, adət-ənənələrini, davranış nümunələrini, həyata baxışını, bir sözlə mədəniyyətini əks etdirməsi ilə xüsusi əhəmiyyət kəsb edir. Az sözlə çox şey izah edən söz və ya söz qrupları olan frazeoloji vahidlər türk dillərində xüsusi yer tutur və dilin öyrənilməsi lazım olan sahəsidir. "Qədim dövrlərdən formalaşan frazeoloji vahidlərin, o cümlədən atalar sözləri, zərb məsəllərin ümumtürk dil materialı əsasında semantik və qrammatik struktur baxımından tədqiqi türk dillərinin tarixi ilə bağlı yeni elmi nəticələrin alınmasına yardımçı olacaqdır"[13, 10].

ƏDƏBİYYAT

1. Uğurlu, M., "Türk lehçeleri arasında benzer kelimelerin eş değerlik durumu", Turkish Studies – International Periodical For The Languages, Literature and History of Turkish or Turkic, Volume 7/4, s. 215-222, Ankara-Turkey, 2012.

2. Akman, H., "Van ağzıyla Türkmen türkçesindeki ortak deyimler ve bu deyimlerde görülen bazı ses değişiklikleri" International Aegean Conferences On Social Sciences & Humanities-IX, s 756-771, İzmir-Türkiye, 2024.

3. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası.I cild, Bakı, "Nurlan", 2009.

4. Bağırov N. Türk dillərinin somatik frazeologiyası. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı – 2022.

5. Qurbanov A., Müasir Azərbaycan ədəbi dili, I cild, Bakı, Nurlan, 2003.
6. Məmmədova A. Oğuz qrupu türk dillərində dilçilik terminləri, Bakı – 2016.
7. Nartyýew, N., "Häzırkı Zaman Türkmen Dılı" (leksika) Aşgabat, 2010.
8. Фомина М.И. Современный русский язык.Лексикология. Москва, 1983.
9. Gökçür E. Türkmen türkçesi ile türkiye türkçesindeki ortak deyimler üzerine., Gümüşhane Üniversitesi Sosyal Bilimler Enstitüsü Elektronik Dergisi Cilt: 9, Sayı: 25, Yıl: 2018, s.95-118,
10. Azərbaycan dilinin izahlı lüğəti, IV cilldə, I cild, Bakı, Şərq-Qərb, 2006.
11. Türkmen diliniň düşündirişli sözlügi, Iki tomluk. I tom. A-Ž – Aşgabat, 2016.
12. Türkçe Sözlük, 11. Baskı, Türk Dil Kurumu Yayınları, Ankara, 2011.
13. Mahmudova Q. Türk dillərinin frazeologiyası. II cild. "Qıpçaq qrupu türk dillərinin frazeologiyası. Bakı, "Nurlan", 2009.

Daxil oldu: 07.03.2025
Qəbul edildi: 16.04.2025

"QUTADGU BİLİG"DE KÖŇÜL/GÖNÜL KAVRAMI ÜZERİNE BİR DEĞERLENDİRME

DOI: https://doi.org/10.36719/3005-3137/1/47-60

Muhittin Gümüş
Öğretim Görevlisi
Kırgızistan Türkiye Manas Üniversitesi
Edebiyat Fakültesi, Mütercim Tercümanlık Bölümü
Bişkek, Kırqızistan
muhittin.gumus@manas.edu.kg
Orcil: 0000-0002-0991-2642

Özet

Araştırmanın amacı, Türkçenin kavramlar dünyasının önemli unsurlarından biri olan "gönül" kavramını dil-kültür bağlamında sistematik olarak inceleyerek anlambilimine ve kültürdilbilimine değer kazandırmaktır. Bütün Türk dil ailesi, söz varlığı yönünden zengin ve anlatım gücü bakımından yüksektir. Söz varlığı içinde çok yaygın kullanılan "köňül /gönül" kavramı Yusuf Has Hacib'in XI. yüzyılda yazdığı Kutadgu Bilig'de sıkça yer almıştır. Soyut kavramlar bakımından çok zengin olan Türkçenin bu alanıyla ilgili, özelikle de soyut düşünce ve duyguları ifade eden kavramların içinde "köňül /gönül" hakkında yazılan bilimsel çalışmalar da yeterli değildir. Bu çalışmamızda Türkçenin XI. yüzyıldaki yazılı eserlerinden biri olan Kutadgu Bilig'de yer alan "köňül/gönül" kavramının geçmiş olduğu mısralar ya da beyitler anlambilim ve kültürdilbilim çerçevesinde incelenip değerlendirilmiştir. Gönül kelimesi şiir dilinin de en sık kullanılan ögelerinden biridir. Bu açıdan "gönül" tam bir şiir kelimesidir. Bütün sevenler sevmişler, ermişler şiire gönül bağlamışlardır. Böylesi inanlar için gönül adamı adlandırması yaygındır. Bir bakıma gönül Türkçenin sözvarlığının yalnızca bir ögesi değil; aynı zamanda çağrışımdan yana alabildiğince zengin, dallı budaklı bir kavramı, alanı geniş mi geniş bir kelimesidir. Türkçede gönül kelimesi, yüklendiği anlam ve değerler sebebiyle tanımı yapılması da zor bir kavramdır. Gönül yalnızca bir kavram ya da varlığıdeğil pek çok göstergeyi işaret etme özelliğine sahiptir. Bundan dolayı kelimelerle Türkçenin iç dünyasına çok çeşitli bağdaştırmalar katar. Geniş bir anlam zenginliğine ve kullanım imkânı olan kavramdır. Türkçenin söz varlığı içerisinde özel bir yeri olan gönül kelimesinin anlamları geniş bir soyut düşünce dünyasını da yansıtma görevini yapmaktadır. Dîvânu Lûgati'Türk'te "köňül" kelimesini açıklamış ve köňüllü: gönüllü, istekli, köňüldeş "gönül arkadaşı, gönüldeş" köňüllen- "gönüllenmek; çocuk-düşünmek ve anlamak; arzu etmek" gibi türevleri vardır. Milletlerin ihtiyaç duydukları şeylere, hayat tarzlarına, dünyayı algılayış biçimlerine, değerlerine bağlı olarak çeşitli organ adlarıyla deyimler üretirler. Kimi toplumlarda soyut duygular için karaciğeri, kimisi göbeği, kimisi de kalbi merkeze alarak metaforlar yoluyla soyut ve somut kavramlara ad verir; toplumun genel düşünce ve duygu yapılarına göre söz varlığı oluşturur. Türkçede "gönül" sözcüğüyle kurulan söz varlığı ögelerinin ifade ettiği toplumsal duygu bildirimleri Kutadgu Bilig'de de görülür. "köňül>gönül" kelimesinin kültürel ve fikrî anlamı, Türk milletinin XI. yüzyılda "gönül" sözcüğüne yüklediği değerin tespiti bu çalışmayla ele alınmıştır. Gönül, Türk edebiyatının anonim, âşık tarzı ve dinî-tasavvufi Türk edebiyatı başta olmak üzere neredeyse her sahasında kullanılmış bir kültür sözcüğüdür. Özellikle halk şiirinde, şarkılarda, türkülerde, atasözü ve deyimlerde yer almaktadır.

Anahtar kelimeler: *Yusuf Has Hâcip, Kutadgu Bilig, köňül, gönül, anlambilim, kültürdilbilim.*

AN EVALUATION ON THE CONCEPT OF 'KÖŇÜL' İN "KUTADGU BİLİG"

Muhittin Gumush
Teacher
Kyrgyz Turkish Manas University
Faculty of Humanities
Department of Translationand Interpreting
Bishkek, Kyrgyzstan
muhittin.gumus@manas.edu.kg
Orcil: 0000-0002-0991-2642

Summary

The aim of the research is to systematically analyse the concept of 'heart', which is one of the important elements of the world of concepts of theTurkish language family, in the context of language-

Müəllifin Nəhəng su daşqını zamanı baş verən hadisələrə münasibəti kifayət qədər maraq doğurur. Bildiyimiz kimi türk mifologiyasında su kultu daha çox həyat mənbəyi kimi göstərilir. Su yeni həyat amili və keçmişlə gələcəyin əlaqələndiricisi rolunda türk mifik baxışlarında daha çox yer ala bilmişdir.

Türk dünyamızın bir çox klassiki kimi Azərbaycan ədəbiyyatının nəhəng siması Məhəmməd Füzuli yaradıcılığında su paklıq, saflıq, təmizlik rəmzi hesab edilmiş və Məhəmməd Peyğəmbərin tərənnümü üçün bu əlamətlərdən lazımi formada istifadə edilmişdir.

Rövzeyi-kuyinə hərdən durmayıb eylər güzar,
Aşıq olmuş, qaliba, o sərvi-xoşrəftara su.
Su yolun ol kuydən torpaq olub tutsam gərək,
Çün rəqibimdir, dəxi ol kuyə qoymam varə su.
Tinəti-pakini rövşən qılmış əhli-aləmə,
İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su [8, 86].

Sultan Rayevin "Daşqın" romanında da su irfani və real anlamlarda yeni həyatın, yeni nizamın yaradıcısı rolunda məna qazanır. Göründüyü kimi romanın adı da su ilə bağlıdır. Su burada həm fəlakət, həm də həyat rəmzidir. Baxmayaraq ki, su daşqını bütün yer kürəsini fəlakətə qərq etdi, amma sular içərisində Allahın mərhəmətindən yaranan bir parça torpaq yeni həyat məkanına çevrildi. Əslində müəllif sular içərisində yeni qurduğu dünyanın simvolikasında yaşama haqqının mümkünlüyünü pisliklərdən, dünyagirlikdən, mənəm-mənəmlikdən və saysız hesabsız rəzalətlərdən uzaqlaşmaqda görür. Bunun əksinə olaraq həqiqət yolundan uzaqlaşmağın aqibəti isə Allahın qəzəbinə düçar olmaqdır. Ona görə də Nəhəng su daşqınından sonra Allaha sevgisi müqabilində yalnız Kxenin özü və ailəsi üçün yaşamaq məkanı yaradanTanrı Kxenin ailə üzvlərinin insanlığa zidd hərəkətləri müqabilində bu məkanı yenidən sulara qərq etdi. Buradakı mifik yanaşma olsa da simvolika mənanın çatdırılması baxımından əhəmiyyətli rol oynayır.

Göründüyü kimi ifrat sonda sıfıra bərabərdir fəlsəfi hökmündə olduğu kimi tənzimlənən yeni dünya iddiası ortaya atılır, həm də onun mahiyyətinin nə olduğu düşüncələri zəbt edir. Lakin bu tənzimləmədə dəyişən nə isə olacaqmı? Müəllif bu sualın cavabını atom fəlakəti ilə (Yeni Su daşqını) üz-üzə dayanan qloballaşan dünyamızın xilasını və nizamını insanlıq keyfiyyətlərinin (əxlaqın, mənəviyyatın, ruhun, vicdanın və s.) dünyaya hakim olacağı zamanda axtarır. Ona görə də yazıçı dünya nizamının yaranmasında doğru olaraq formal dəyişməni yox, mahiyyət dəyişməsini vacib sayır.

Nəticə. Müəllifin son qənaəti budur ki, insanlıq keyfiyyətləri yüksək olanlar təkcə Tanrının yox, həm də taleyin sınağından məharətlə çıxa bilirlər. Bu baxımdan Sultan Rayev öz qəhrəmanı (həm də idealı) olan Kxenin yeni dünyanın yeni sakini olmasının səbəbini həyata olan sevgisi ilə

bağlayır. Bu həm də Allahın insanlara verdiyi haqdır. Demək dünya nizamı qorxu yox, sevgi üzərində yarana bilir: Allaha, dünyaya və insanlara olan sevgi üzərində. Bunu həm də dünyada nizamlı yaşamaq üçün (həm də dünya nizamı qurmaq üçün) müəllifin insanlara çağırışı kimi də qəbul etmək olar. İrland əsilli Böyük Britaniya yazıçısı, Nobel mükafatçısı Bernard Şounun bir fikrini xatırlatmaq istərdim: "Biz göydə quş kimi uçmağı, suda balıq kimi üzməyi öyrəndik, lakin yer üzündə insan kimi yaşamağı öyrənə bilmədik" [9, 102]. Mənə elə gəlir ki, Sultan Rayevin "Daşqın" romanını oxuduqdan və onun mahiyyətini dərk etdikdən sonra hər bir oxucunun fikirlərinə bu sözlər hakim kəsiləcəkdir: "Yer üzündə nəinki insan kimi yaşamağı bacarmaq, eyni zamanda bu məkanda dünya nizamı yaratmaq da mümkündür" [13, 203].

ƏDƏBİYYAT

1. Şəhriyar. Yalan dünya, Bakı, 1993
2. Ziya Paşa. Külliyyatı, I və II cildlər, İstanbul, 1965
3. Sultan Rayev. Daşqın , Bakı, 2023
4. Sultan Rayev. Dəlixana, Bakı 2024
5. Султан Раев. "Чаң жол". Рассказ. Бишкек.; изд."Мектеп", 1988
6. Султан Раев. "Күн кармаган бала". Повесть и рассказы. Бишкек.; изд. "Кыргызстан", 1991
7. Султан Раев. "Ханышанын көз жашы". Повесть, рассказы, драма. Бишкек.; изд. "Шам", 2008
8. M. Füzuli. Əsərləri, Altı cilddə, IV cild, Bakı 2005
9. Султан Раев. "Haftanin besinci gunu". Повесть, рассказы. Анкара.; изд. «Бенжи», 2011
10. Султан Раев. "Корона". Повесть, рассказы, драма. Москва.; изд. "Перо", 2012
11. Султан Раев. "Жанжаза". Роман. Бишкек.; изд. "Турар", 2013
12. Султан Раев. "Топон". Роман и повесть. Бишкек.; изд. "Турар",2018.
13. Султан Раев. "Пятый день недели". Повести и рассказы. Бишкек.; изд. "Турар", 2017
14. Султан Раев. "Пусу". Сб. Рассказов. Бишкек.; изд. "Турар", 2019

Daxil oldu: 26.02.2025
Qəbul edildi: 01.04.2025

SƏHƏNDİN "DƏDƏMİN KİTABI" DASTAN-MƏNZUMƏSİ AMANTAY ŞƏRİFİN TƏRCÜMƏSİNDƏ

DOI: https://doi.org/10.36719/3005-3137/1/75-86

Nizami Məmmədov Tağısoy
Filologiya elmləri doktoru, professor
Bakı Slavyan Universiteti
Bakı, Azərbaycan
nizami.mamedov@mail.ru
Orcid: 0009-0009-9837-4564

Xülasə

Bulud Qaraçorlu Səhənd (1926 – 1979) XX əsrin ortaları və ikinci yarısı Cənubi Azərbaycan poeziyasının parlaq nümayəndələrindən biridir. Onun son dərəcə naxışlı poetik misraları milyonlarla oxucuların qəlbinə yol tapmışdır. Onun yaratdığı çoxsaylı parlaq nümunələr sırasında dünya şöhrətli "Kitabi-Dədə Qorqud" eposunun motivləri əsasında yazdığı "Dədəmin kitabı" dastan-mənzuməsinin xüsusi yeri vardır. Təqdir olunasl haldır ki, onu bu yaxınlarda, daha dəqiq desək 2024-cü ilin sonlarında tanınmış qazax alimi, ədəbiyyatşünası, filologiya elmləri doktoru, professor, Qazaxıstan Milli Elmlər Akademiyasının müxbir üzvü, mütərcim Amantay Şərif öz doğma dilinə tərcümə etmişdir. Müəllifin özünün bizə hədiyyə etdiyi "Сағыныш саздары. Дастандар" ("Sazın kədəri. Dastanlar") kitabında əsərin tərcüməsi ilə tanış olduq. Kitabda Cənubi Azərbaycan poeziyasının ünlü nümayəndələrindən M.H.Şəhriyarın "Heydərbabaya salam" və B.Q.Səhəndin "Dədəmin kitabı"nın tərcümələri yer almışdır. Elə buradaca qeyd edək ki, Amantay Şərif Qazaxıstanda Azərbaycan ədəbiyyatının yaxın dostu və təbliğatçısı kimi tanınmaqdadır. Belə ki, o, Astanada Beynəlxalq Türk Akedimayası tərəfindən keçirilən müstəqillik ideyaları carçısı "Əhməd Cavad-130" tədbirinin fəal iştirakçılarından, ümumilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş L.Qumilyov adına Avrasiya Milli Universitetində açılmış auditorianın yaradılmasına yaxından dəstək verən, ümumiyyətlə, Azərbaycan qazax ədəbi-mədəni qarşılıqlı əlaqələrini yüksələn xətlə gedən istiqamətinə öz töhvələrini verən alimlərdəndir. Göstərdiklərimizlə yanaşı, o, Qazaxıstanda və Azərbaycanda Bəxtiyar Vahabzadə yaradıcılığı ilə bağlı məruzələr etmiş, Həsən bəy Zərdabinin, Hüseyn Cavidin və digərlərinin yaradıcılıq irsini müqayisəli-qarşılaşdırıcı planda təhlil etmiş və onları XX əsrin əvəlləri qazax poeziyası ilə əlaqəli şəkildə səciyyələndirən alimlərdəndir. Bundan başqa, o, Bəxtiyar Vahabzadənin "Gülüstan", Hüseyn Cavidin "Müharibə və fəlakət", M.F.Axundzadənin "Aldanmış Kəvakib" və b. bu kimi əsərləri qazax dilinə tərcümə və milli oxuculara təqdim etmişdir. Bunlarla yanaşı, onun "Azərbaycan ədəbiyyatı antologiyası" adlı kitabı və elə bu "Antalogiyada..." H.Cavidin "İblis" faciəsini öz tərcüməsində təqdim etmişdir ki, bu da mütərcimin yaradıcılığının dəyərli səhifəsi kimi dəyərli qiymətləndirilməlidir. Səhəndin "Dədəmin kitabı"nın tərcüməsinə gəldikdə isə qeyd etməliyik ki, Amantay Şərif burada Azərbaycan şairinin yetərincə yaradıcılığının üstün keyfiyyətlərinin özünəməxsusluğunu qoruya bilməklə onun türkçülüklə, müstəqilliklə bağlı hiss və duyğularını simvolizə edən Azərbaycan türklərinin mədəni keçmişinin xüsusiyyətlərinə, Arazın o tayında yaşayan soydaşımızın bulaq gözündən süzülmüş damla kimi dumduru ifadələrini, müəllifin poetik fikirlərinin orijinallığını, fars rejimi hakim dairələrinin özbaşınalığını və s. bağlı məqamları tərcümədə qorumağa məsuliyyətlə yanaşmışdır. Bax, bütün qeyd etdiyimiz bu keyfiyyətləri Amantay Şərif öz tərcümə işində uğurla yarada bilmişdir. Məhz buna görə də biz Amantayın Qazax dilinə tərcüməsinin yüksək şəkildə yerinə yetirildiyini təkidlə vurğulamalıyıq. Amantay Şərifin bu tərcüməsi qazax mədini-ədəbi mühitinin bizim poetik nümunələrin təbliğində xüsusi əhəmiyyəti olduğunu qeyd etməkdə israrlıyıq. Müqayisə və metoforik ifadələrlə zəngin olan Səhəndin "Dədəmin kitabı"dastan-poeması qazax dilində orijinal müəllifinin emosional naturasını uğurla yarada bilmişdir. Orijinalla tərcüməni təhlil prosesində biz mütərcimin Cənubi Azərbaycan şairinin yaradıcılıq laboratoriyasına dərindən bələd olduğunu və orijinal müəlliinin əsərinin struktur-kompozisiya və ideya-məzmun özünəməxsusluğunun ən incə məqamlarını yarada bilmişdir. Başqa sözlə, Amantay Şərif "Dədəmin kitabı"nın müəllifini uğurla təccəssüm etdirmişdir. Mütərcim çevirdiyi mətnə özbaşına, sərbəstcəsinə yox, rus teatrı və səhnəsinin böyük reformatoru K.S.Stanislavski sisteminə uyğun olaraq hərəkət etməyi bacarmışdır. Təqdim etdiyimiz materialda biz Amantay Şərifin tərcüməsinin adekvatlıq dərəcəsini orijinalın əsas elementlərinin tərcüməçi tərəfindən necə saxlanılnasına diqqət yetirib, qeyd etdiyimiz tərcümənin Azərbaycan poeziyasından qazax dilinə edilmiş ən yaxşı nümunə kimi dəyərləndirmişik.

Açar sözlər: *Səhənd, Dədəmin kitabı, Şərif, adekvatlıq, parlaq nümunə, qazax dili, orijinal, mətn*

DASTAN-SEKHEND'S POEM "MY FATHER'S BOOK" IN TRANSLATION AMANTAYA SHARIF

Nizami Mammadov Taghisoy
Doctor of philology, professor
Baku Slavic University
Baku, Azerbaijan
nizami.mamedov@mail.ru
Orcid: 0009-0009-9837-4564

Summary

As is known, Bulud Karachorlu Sehend (1926-1979) is one of the brightest representatives of South Azerbaijan poetry of the middle and second half of the 20th century. His clear poetic lines found their way into the hearts of millions of readers. Among the numerous bright poetic examples he created, a special place belongs to the dastan-poem "The Book of My Father", written on the motives of the world-famous epic "Kitabi-Dede Korkut". It is gratifying that the named poem of Sehend was literally recently, more precisely at the end of 2024, translated into his native language by the famous Kazakh scientist, Doctor of Philological Sciences, professor, corresponding member of the National Academy of Sciences of Kazakhstan, translator Amantay Sharip. We had the opportunity to get acquainted with this translation in the book "Sagynysh sazdary. Dastandar" ("Sadness of the saz. Dastans"), presented to us by the author of the translation himself. The book presents translations of poems by two South Azerbaijani poets - M.G.Shakhriar "Greetings to Heydarbaba" ("Heydərbabaya salam") and the dastan-poem by B.K.Sehend "The Book of My Father" ("Dədəmin kitabı"). Here we will also note that Amantai Sharip is a close friend and promoter of Azerbaijani literature in Kazakhstan. It is enough to note that he was one of the organizers of the event held in Astana by the International Turkic Academy dedicated to the herald of the independence of the Azerbaijani and Turkic peoples "Ahmed Javad – 130", as well as the opening of the memory of the national leader Heydar Aliyev to the audience at the Eurasian National University named after D.Gumilyov. He does a lot in terms of strengthening Azerbaijani-Kazakh cultural and literary ties. In addition to the above, Amantai Sharip has repeatedly given presentations on the works of Bakhtiyar Vahabzade, Hasan bey Zardabi, and has also studied numerous, unexplored aspects of the creative originality of Huseyn Javid in a comparative-contrastive manner with individual examples of Kazakh poetry of the early 20th century. He translated B.Vahabzade's poem "Gulistan", G. Javid's "War and Collapse", M.F. Akhundzade's story "Deceived Stars", prepared and presented to the Kazakh reading audience the "Anthology of Azerbaijani Literature", in addition to other examples, he presented in the "Anthology..." a translation of G. Javid's tragedy "The Devil" ("Ibis") and many others. etc. As for the translation of the dastan-poem Sehend, here too Amantay Sharip managed to convey to Kazakh readers the most indisputable features of the creative originality of the Azerbaijani poet and his attitude to Turkism, presented in all its glory the elements symbolizing his feelings of independence, the figurative world of the rich Turkic past, the attitude to the cultural characteristics of the Azerbaijani Turks living on the other side of the Araz, the brightness, color and transparency of the original author's thoughts as a spring drop, the attitude of the Persian authorities to the Turkic syllable, etc. etc. All these moments are quite successfully preserved and adequately conveyed by Amantay Sharip in his native language. That is why he so affirmatively and unequivocally expressed his positive thoughts about this work of a talented Kazakh translator. A.Sharip directly connects almost the last years of his translation searches with the Azerbaijani cultural and literary environment and the promotion of our literature in his country. The language of the dastan-poem of Sehend "The Book of My Father", rich in comparisons and metaphorical comparisons, conveys the emotionality of the nature of the Azerbaijani author in the work of the Kazakh author. In the process of studying the original and translation, we saw a deep penetration into the creative laboratory of the structural-compositional and ideological-content originality of the handwriting of the translated author. In other words, Amantay Sharip managed to embody the author of "The Book of My Father". The translator did not approach the translated text voluntaristically. He completely reincarnated into Sehend, as if acting according to the system of the great reformer of the theater and stage K.S.Stanislavsky. So, in this material, we analyze the degree of adequacy of the translation of A.Sharif, express our thoughts on the preservation of the main elements of the original and believe that this translation is a striking example of Azerbaijani poetry in the Kazakh language.

Key words: *Sekhend, my father's book, translation, Sharip, adequacy, vivid example, kazakh language, original, text*

ДАСТАН-ПОЭМА СЕХЕНДА «КНИГА МОЕГО ОТЦА» В ПЕРЕВОДЕ АМАНТАЯ ШАРИПА

Низами Мамедов Тагисой
Доктор филологических наук, профессор
Бакинский славянский университет
Баку, Азербайджан
nizami.mamedov@mail.ru
Orcid: 0009-0009-9837-4564

Резюме

Как известно, Булуд Карачорлу Сехенд (1926-1979) является одним из ярких представителей южно-азербайджанской поэзии середины и второй половины XX в. Его чеканные поэтические строки нашли путь в сердца миллионов читателей. Среди многочисленных созданных им ярких поэтических образцов особое место принадлежит дастану-поэме «Книга моего отца», написанная на мотивы всемирно известного эпоса «Китаби-Деде Коркуд». Отрадно, что названную поэму Сехенда буквально недавно, точнее, в конце 2024 года известный казахский ученый, доктор филологических наук, профессор, член корреспондент Национальной Академии Наук Казахстана, переводчик Амантай Шарип перевел на родной язык. Мы имели возможность познакомиться с этим переводом в книге «Сагыныш саздары. Дастандар» («Грусть саза. Дастаны»), подаренной нам самим автором перевода. В книге представлены переводы поэм двух южно-азербайджанских поэтов – М.Г.Шахрияра «Привет Гейдарбабе» (“Heydərbabaya salam”) и дастан-поэма Б.К.Сехенда «Книга моего отца» («Dədəmin kitabı»). Здесь же заметим, что Амантай Шарип близкий друг и пропагандист азербайджанской литературы в Казахстане. Достаточно отметить, что он был одним из организаторов проведённого в Астане Международной Тюркской Академией мероприятия «Ахмед Джавад – 130», посвящённого глашатаю независимости азербайджанского и тюркского народов, а также открытии аудитории общенационального лидера Гейдара Алиева в Евразийском Национальном университете им. Д.Гумилёва. Он многое делает и в плане усиления азербайджанско-казахских культурно-литературных взаимосвязей. Амантай Шарип не раз выступал с докладами по творчеству Бахтияра Вагабзаде, Гасан бека Зардаби, а также исследовал многие неизученные аспекты творчества Гусейна Джавида в сравнительно-сопоставительном плане с отдельными образцами казахской поэзии начала XX в., переводил поэму Б.Вагабзаде «Гулистан», Г.Джавида «Война и крушение», повесть М.Ф.Ахундзаде «Обманутые звёзды», подготовил и представил казахской читательской аудитории «Антологию азербайджанской литературы», где помимо прочих образцов представил перевод трагедии Г.Джавида «Дьявол» («Ибис») и мн. др. А что касается перевода дастана-поэмы Сехенда, то и здесь Амантай Шарип сумел передать казахским читателям самые неповторимые особенности творческого своеобразия азербайджанского поэта и его отношение к тюркству, представил во всём блеске элементы, символизирующие чувство независимости, образный мир богатого тюркского прошлого, отношение к культурным особенностям азербайджанских тюрков, живущих по ту сторону Араза, яркость, красочность и прозрачность мыслей автора оригинала, отношение персидских властей к тюркскому слогу и т.д. и т.п. Все эти моменты довольно удачно сохранены и адекватно переданы Амантаем Шарипом на родным языке. А.Шарип почти все последние годы своих переводческих поисков напрямую связан с азербайджанской культурно-литературной средой и пропагандированием нашей литературы в своей стране. Богатый сравнениями и метафорическими сравнениями язык дастана-поэмы Сехенда «Книга моего отца» передает в работе казахского автора эмоциональность натуры азербайджанского автора. В процессе изучения оригинала и перевода мы увидели глубокое проникновение в творческую лабораторию, в анализ особенностей структурно-композиционной и идейно-содержательного своеобразия почерка переводимого автора. Иными словами, Амантай Шарип сумел воплотиться в автора «Книга моего отца». Переводчик не волюнтаристски подходил к переводимому тексту. Он полностью перевоплотился в Сехенда, словно действуя по системе крупного реформатора театра и сцены К.С.Станиславского. Итак, в данном материале, мы, анализируя

степень адекватности перевода А.Шарифа, высказываем свои соображения относительно сохранения основных элементов оригинала и считаем, что данный перевод является ярким образцом азербайджанской поэзии на казахском языке.

Ключевые слова: *Сехенд, Книга моего отца, перевод, Шарип, адекватность, яркий образец, казахский язык, оригинал, текст*

Aktuallıq. Son iki onillikdə Azərbaycanla Qazaxıstan arasında yüksələn xətlə gedən ictimai-siyasi, iqtisadi-mədəni əlaqələr hər iki ədəbiyyatdan olan bədii-poetik nümunələrin birindən digərinə daxil olmasını sürətlə gündəmə gətirir. Bu kontekstdə qazax dilindən Azərbaycan, Azərbaycan dilindən qazax dilinə çevrilən örnəklərə həm də müqayisəli qarşılaşdırıcı müstəvidə yanaşıb, təhlillər aparmağı, müvafiq elmi-nəzəri baxış sərgilənməyi zəruriləşdirir. Artıq bu gün yalnız aparılan tərcümələrin konstatasiyasından yox, onların təqdir edilməsindən bu tərcümələrin mütərcimlər tərəfindən nə dərəcədə adekvat, yaxud orijinal mətnindən kənarlaşmalar səviyyəsində araşdırılmasına elmi-nəzəri kontekstdə ehtiyac duyulur. Təqdim olunmuş materialın aktuallığı da məhz bununla əlaqədardır.

Annotasiya. Üç onillikdən artıqdır ki, qazax ədəbiyyatının çoxsaylı müəlliflərinin yaradıcılığını, o cümlədən Azərbaycan ədəbiyyatından etdikləri tərcümələrin səviyyəsini və s. cəhətləri xronoloji-tarixi zəmində izləyir, onlarla bağlı məntiqə əsaslanan fikir və mülahizələr ortaya qoymağa səy göstəririk. Amantay Şərifin Səhəndin "Dədəmin kitabı"nı qazax oxucularına itkisiz çatdırması isə həmin xalqın milli mədəniyyətində önəmli mədəni hadisədir. Qazax şair, alim və mütərcimlərinin Azərbaycan ədəbiyyatından etdikləri tərcüməyə məhz bu yazıda ilk dəfədir ki, nəzəri-praktik kontekstdə konseptual rakursdan nəzər salınır. Amantay Şərifin böyük zəhmət hesabına araya-ərsəyə gətirdiyi bu fundamental tərcümədə orijinal və tərcüməni bir-biri ilə tutuşdurub, paralel təhlilər aparmaqla münasibət sərgilənir.

Metod. Materialın hazırlanmasında dünya tərcümə nəzəriyyəsi və praktikasının söykəndiyi metodoloji yanaşmalardan və müqayisəli- qarşılaşdırıcı metoddan istifadəyə üstünlük verilmişdir.

Giriş. 30 ildən artıqdır ki, biz qazax ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatı arasında olan bağlantı və kontaktların öyrənilməsi ilə məşğul oluruq. Son iki onillikdə isə Azərbaycan və qazax ədəbi əlaqələrinin ardıcıl olaraq canlanması hər iki ədəbiyyat nümayəndələrinin bir-birindən etdikləri tərcümə örnəklərinin elmi-nəzəri, fəlsəfi-estetik, bədii-poetik səviyyələrinə nəzər salmağın vaxtı çoxdan keçməkdədir. Bu məqsədlə biz bu yaxınlarda kollektiv qazax müəlliflərinin Məhəmməd Hüseyn Şəhriyardan etdikləri "Heydərbabaya salam" poemasının qazax dilinə tərcüməsi ilə bağlı bir material hazırlayıb "Ədəbiyyat qəzeti"ndə təqdim etmişik. Adi çəkilən materialı beynəlxalq arenada zəruri səviyyədə araşdırıb, "Mahmud Kaşğarlı" beynəlxalq səviyyəli dərgidə nəşr etdirməyi məqsədəuyğun hesab edirik. Qazax müəlliflərinin ortaya çıxardıqları işin maraqlı cəhəti ondadır ki, qazax dilinə tərcümə edilən bu əsərlər M.Şəhriyar və B.Q.Səhənd Cənubi Azərbaycan ədəbiyyatımızın ən görkəmli nümayəndələrindəndir. Amantay Şərifin əsər üzərində işinin orijinalın ruhuna uyğun olması və mütərcimin uğura imza atmasını orijinalla tərcüməni bir-biri ilə qarşılaşdırmaqla ortaya çıxarmışıq. Materialın əsas hissəsində oxucular və mütəxəssislər qeyd etdiyimiz bu məqamların yaxından şahidi olacaqlar.

Bu yaxınlarda qazax ədəbi-nəzəri fikrinin tanınmış nümayəndəsi filologiya elmləri doktoru, professor, Qazaxıstan Milli Elmlər Akademiyasının müxbir üzvü, tanınmış ədəbiyyatşünas-alim və müqayisəli ədəbiyyatşünaslıq üzrə dəyərli mütəxəssis, tərcümə nəzəriyyəçisi və mütərcim dostum Amantay Şərif Xəzər Universitetinin təşkil etdiyi Beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycana gəlmişdi. Burada səfəri həddən artıq zəngin və ağır qrafikli olsa da, onunla imkan tapıb görüşə bildik. O, mənə üzərində son dərəcə intensiv işləyib hazırladığı "Türk xalqlarının müəllifli şifahi poeziyası və ədəbiyyatlararası əlaqələr" [14], "Türk xalqlarının müəllifli şifahi poeziyası" [13] və "Sazın kədəri". Dastanlar. Məhəmməd Hüseyn Şəhriyar. Bulud Qaraçorlu Səhənd [12] kitabını hədiyyə etmişdi. Mütəmadi olaraq saxladığımız əlaqələrə görə Amantay bəyin bu kitablar üzərində çoxdandır işlədiyindən xəbərdar idik.

Amantay Şərif Astanada L.Qumilyov adına Avrasiya Milli Universitetinin Türkologiya kafedrasında işləyir. Qazaxıstanda bir sıra sahələrdə yüksək vəzifələrdə çalışmışdır. Çoxsaylı dövlət və beynəlxalq mükafatlar və fəxri adlarla təltif olunmuşdur, xeyli sayda tutarlı monoqrafik araşdırmalar müəllifidir. İndiyədək onun qələmindən "Sultanbəy Kojanulı – ədəbiyyatçı" (1994), "Hakimiyyət və yaradıcılıq" (1995), "Qazax poeziyası və milli ideya" (2000), "Sultanbəy Kojanovun əsərləri" (2009), "Qızıl damar" (2009), "Bədii söz və milli ruh" (2010) və b. bu kimi dəyərli araşdırmalar çıxmışdır.

Amantay Şərif eyni zamanda türk dövlətlərinin inteqrasiyası və qarşılıqlı əlaqələri istiqamətində fəal iştirak edən və onun işinə dəyərli töhfələr verən böyük və yorulmaz türkçü alimlərdəndir.

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, Amantay Şərif "Müasir ideoloji dəyərlərin transformasiyası kontekstində ənənəvi mentalitet və onun qazax ədəbiyyatında bədii təcəssümü" (2012-2014), "Türk ədəbiyyatı və onun ənənəsinin tipologiyası" (2014), "Doğma yer" konseptinin milli-mədəni özəlliyi və onun qazax ədəbiyyatında bədii təsviri" (2018-2020), "Türk xalqlarının müəllifli şifahi poeziyası: genezis, tipologiya, poetika" (2022-2023) kimi qrant layihələri əsasında ortaya qoyulmuş əsərlərin də müəllifidir.

Bəhs etdiklərimizlə yanaşı, Amantayın "Ruh və rəmz: mentallıq modelləri" ("Рух мен: менталъдик модельдері" (2013), "Müəllifli şifahi poeziya. Məqalələr toplusu" (2023), "Türk poetikası sözlüyü" (2023) və s. kimi aktual məsələləri çevrələyən araşdırmalarının adlarını da buraya əlavə etsək, belə olduğu halda bu alimin nə qədər intensiv işləyib, dəyərli tədqiqatlar həyata keçirdiyinin şahidi olarıq.

Amantay Şərif Azərbaycana, onun mədəniyyətinə, ədəbiyyatına, əski düşüncəsinə, folklor ənənələrinə yaxından bağlı olan tədqiqatçılardandır. Məsələn, 2022-ci ildə o, Qazaxıstanın paytaxtı Astanada Beynəlxalq Türk Akademiyası tərəfindən təşkil olunmuş "Müstəqillik carçısı Əhməd Cavad – 130" tədbirinin fəal iştirakçılarındandır. Eyni zamanda 2023-cü ildə L.Qumilyov adına Avrasiya Milli Universitetində Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi münasibəti ilə yaradılmış auditoriya ilə bağlı çıxışları müəllifin Azərbaycan və onun mədəniyyəti ilə nə dərəcədə bağlılığını göz önünə gətirməkdədir.

Yuxarıda nəzər saldığımız nümunələrdən göründüyü kimi alimin yaradıcılıq istiqamətləri sırf ədəbiyyatşünaslıq, ədəbi tənqid, etnologiya, etnoqrafiya, sosiologiya, fəlsəfə, estetika məsələləri ilə yanaşı, həm də ədəbiyyatlararası və folklor əlaqələri, xüsusi olaraq Azərbaycan-qazax folklor və yazılı ədəbiyyat əlaqələrini sistemli və dərindən təhlil edən praqmatik təfəkkürlü tədqiqatçı olduğunu düşünmək mümkündür.

Burada biz əsas etibarı ilə Amantay Şərifin digər əsərlərinin məziyyətlərinə toxunmadan sərişteli mütərcimin "Sazın kədəri" ("Сағыныш саздары") ilə bağlı mülahizələrimizi bildirmək istəyirik. "Sazın kədəri" (Dastanlar)" kitabında Amantay Şərif Cənubi Azərbaycandan olan iki poeziya nəhənglərimizdən biri Bulud Qaraçorlu Səhəndin "Atamın kitabı" ("Атамның кітабы") əsərinin tərcüməsi üzərində dayanacağıq.

Kitab Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayevin "Ön söz"ü ilə açılır və burada Azərbaycan klassik şairlərindən olan Şəhriyar və Səhəndin ədəbiyyatımızda yenilməz mövqeyi dilə gətirilir. Eyni zamanda "Qorqud Ata kitabı"ından dövrümüzə gəlib çatan "Atamın kitabı" (yaxud Səhənddə olduğu kimi "Dədəmin kitabı") dastanının qazax oxucularına çatdırılması türk xalqlarının ruhi-mənəvi dünyasının daxili tələbi kimi yüksək dəyərləndirilir [9, б. 3-4].

Poeziya tərcüməsində dilin oxunaqlılığı, ahəngdarlığı, ritmik strukturu, qafiyə elementlərinin daha önəmli mövqedə dayandığının zəruriliyi çoxdan məlumdur. Burada isə onu da əlavə edək ki, Amantay Şərif uzun illərdir ki, Azərbaycan ədəbiyyatının ünlü nümayəndələrinin əsərlərinin qazax dilinə tərcümələri üzərində ardıcıl araşdırmalar və tərcümə işləri həyata keçirməkdədir. Təkcə bunu deyək ki, Amantayın ədəbiyyatşünaslıq sahəsindəki elmi çalışmalarının mühüm bir hissəsini onun Azərbaycan ədəbiyyatı ilə bağlı apardığı tədqiqatlar təşkil edir. Bu baxımdan biz onun Azərbaycan ədəbiyyatı, dili və mədəniyyətinə həsr olunmuş məqalələrini: "Bəxtiyar Vahabzadə yaradıcılığı və

XX əsrin II yarısı qazax poeziyası: ideya-mövzu və bədii paralellər" mövzusunda Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunda etdiyi məruzəni [15, 95-99], "Hüseyn Cavid romantizmi və XX əsrin əvvəlləri qazax ədəbiyyatı: mənəvi axtarışlar və humanist ideallar (müqayisəli təhlil) [16, 28-35], "Həsən bəy Zərdabinin naşirlik təcrübəsi XIX əsrdə türk xalqlarının dövrü mətbuatının təşəkkülü kontekstində" [17, б. 151-162], yenə də Hüseyn Cavid yaradıcılığının çeşidli tərəflərinə həsr etdiyi "Hüseyn Cavid və XX əsrin əvvəlləri qazax poeziyası" [18, б. 141-146], "Azərbaycan ədəbiyyatşünası Auezov haqqında" [19, с. 141-146] və başqa bu kimi tədqiqat xarakterli məqalə və materiallarla yanaşı, Azərbaycandakı miniatür kitab muzeyi ilə bağlı məqaləsini 14 aprel 2023-cü ildə Türküstandakı (https:turkystan:kz/artikle 219884 – miniatyur – kitap-muzeyi) internet resursunda yerləşdirib təbliğ etməsi Amatay bəyin apardığı işlərin aktual mühüm araşdırmalar olduğu qənaətini yaradır.

Amantay Şərifin elmi prioritetlərində Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərlərinin qazax dilinə tərcüməsindən bəhs edərkən Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının tərcüməsinin müəllifin izah və əlavələri ilə "Dünya ədəbiyyatı" dərgisində, Hüseyn Cavidin "Hərb və fəlakət: Uçar, uçar... "Uçar, uçar…", "Türk əsirləri", Arkadaş, yoldaş... kimi şeirləri [2, б. 356-365], Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" ("Алданган жулдыздар") povestini yenə də elmi izah və əlavələrlə [2, б. 203-244], Hüseyn Cavidin "İblis" dramının tərcüməsini yenə də adını çəkdiyimiz mənbədə [3, 365-392] doğma oxuculara təqdim etmişdir. Elə buradaca onu da əlavə edək ki, Amantay Şərif Həsənbəy Zərdabinin məqalələrini də artıq əlyazma şəklində çapa hazırlamışdır.

Bundan başqa Amantay Şərif beynəlxalq səviyyəli konfranslardakı məruzələrində qazax ədəbiyyatının ünlü nümayəndələrinin yaradıcılığını daim diqqət mərkəzində saxlayan ədəbiyyatşünaslardandır. Son illər ərzində onun Bakı Dövlət Universitetində Abay Kunanbayevin 175 illiyinə həsr olunmuş Beynəlxalq konfransda etdiyi "Abay və türk dünyası" mövzusundakı məruzəsi [1]; Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Beynəlxalq Türk kitabı və ədəbiyyatı çərçivəsində keçirilən festivalda "Əhməd Baytursınulı və türk dünyası" mövzusundakı məruzəsi [4]; "Türkiyə-Azərbaycan-Qazaxıstan" XXI Beynəlxalq Simpoziumunda "Türk mədəniyyətində çöl konsepti; folklordan Abaya qədər" mövzusunda etdiyi məruzə (30 sentyabr 2022-ci il) və başqa bu kimi çıxışları alimin ədəbiyyatşünaslıq sahəsində apardığı davamlı və intensiv fəaliyyətinin səmərəli nəticəsi kimi dəyərləndirməlidir.

Amantay Şərif ümumi ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi, ədəbi əlaqələr və bədii-poetik əsərlərin tərcüməsi və onların müxtəlif problemlərinin öyrənilməsi ilə yanaşı, həm də türk dünyasında (folklor, epos, klassik və müasir ədəbiyyat) ədəbiyyat və mədəniyyətlərin çeşidli problemlərinə nəzər salmış, səriştəli tədqiqatlar aparmış mütəxəssislərdəndir. Bu baxımdan onun türk ədəbiyyatında Həsən Qayğı obrazı, Məhdimqulu yaradıcılığı Abayın dilində, Qırğız şairi Toktaqul Satılqanov qazaxlar haqqında, "akın" terminin izahı, qazax və qırğız şairləri Toktaqul və Tilemisin "Dünya" şeirinin orijinal versiyası haqqında, Məhdimqulu və qazax ədəbiyyatı, özbək baxışısı Baxşıgül Toğayevlə apardığı "Dombra qəlbimin bir guşəsidir" adlı müsahibəsi, tatar şairi və dramaturqu Fəthi Burnaşa həsr etdiyi tədqiqat işləri Amantay Şərifin elmi yaradıcılığının hələ də tam olmayan çeşidli və rəngarəng mənzərəsidir.

Amantay Şərifin Qazax-Azərbaycan ədəbi əlaqələrinin inkişafında göstərdiyi xidmətlərə görə Türksoyun Beynəlxalq "Molla Pənah Vaqif" və "Aşıq Ələsgər –200" Yubiley medalları ilə təltif olunması da alimin çoxşaxəli elmi yaradıcılığının çeşidli mənzərəsini yaradır.

Bulud Qaraçorlu Səhəndin "Dədəmin kitabı"nı o, "Atamın kitabı" adı ilə geniş oxucu və tədqiqatçı ictimaiyyətinə çatdırmışdır. Bəri başdan bildrək ki, Səhənd o qədər uzun ömür yaşamasa da, ədəbiyyat tariximizin yaddaşında nəhəng poetik fikir sahibi və faciəvi taleyi ilə seçilən söz sahiblərindən biri kimi qalmışdır. Poetik-estetik yaradıcılığında orijinal mövzulara daha dərindən baş vurmağı bacaran Səhənd o taylı, bu taylı ədəbi yaddaşımızda əsasən "Dədəmin kitabı" epik dastanının müəllifi kimi tanınmışdır. Cənubi Azərbaycan ədəbiyyatımızın səriştəli tədqiqatçısı Fikrət Süleymanoğlunun 2015-ci ildə Bulud Qaraçorlu Səhəndin "Dədəmin kitabı" (Poemalar

silsiləsi) nəşrinə yazdığı "Səhəndin şah əsəri" [11, 3-16] adlı ön sözündə və şərhlərdə Azərbaycan şairinin yaradıcılığının səciyyəvi tərəfləri ilə yanaşı, onun 35 illik poetik fəaliyyətinin müxtəlif məqamları işıqlandırmaqla, həm də "Dədəmin kitabı"nın ən dəyərli və zəruri keyfiyyətlərini əsərdən gətirdiyi fraqmentlərdə əsaslandırmış, şairin çeşidli şeir qəlib və ölçülərindən istifadə etdiyini illüstrativ şəkildə təqdim etmişdir.

Əsər Türk dünyasının müqəddəs və yenilməz abidəsi olan "Kitabi-Dədə Qorqud"un nə 12 boynunun fərdi poetik interpretasiyası, nə də təqlidi deyildir. Bu, Səhəndin unikal yaradıcılıq manifesti olmaqla Qorqud babamızdan bizlərə qalan mirasa qədirbilənliklə yanaşmasının özünəməxsus hadisəsidir. Odur ki, Səhəndin "Dədəmin kitabı"nın qazax türkcəsinə çevrilməsi Azərbaycan ədəbiyyatşünaslığının, ədəbi əlaqalərinin və tərcüməşünaslığının mühüm səhifəsi kimi dəyərləndirilməlidir.

Amantay Şərif Səhəndin "Dədəmin kitabı"nı qazax oxucularına sanki bir nəfəsə təqdim elə bilir [20, б. 50-469].

Yuxarıda bildirdiyimiz kimi, Azərbaycan ədəviyyatından qazax dilinə Amantay Şərif yetərincə poetik nümunələrin çevrilməsinə həyat vermişdir. Burada onu da əlavə etmək zəruridir ki, qazax poetik dili ilə Azərbaycan şeir dilində xeyli dərəcədə müxtəlifliklər olsa da, müəllif tərəfindən axtarılıb tapılmış doğru-dürüst mütərcimlik strategiyası Səhəndin dastanının başlıca qayəsini qazax dilində yaratmağa imkan verməklə milli auditoriyanın əsərlə tanışlığında aparıcı rol oynamışdır. Onu da bildirək ki, orijinal mətnində yer almış Azərbaycan milli mədəniyyəti, estetik və fəlsəfi anlayışlarının qazax dilində o qədər analoqu olmasa da, müəllif tərcümə zamanı onların öhdəsindən gərəyincə gələ bilmişdir.

Səhəndin əsərinin digər danılmaz məziyyətləri ilə yanaşı, burada şairin içində qaynayan, doğma türklüyə, türkçülüyə bağlılığı, azadlığı simvolizə edən elementlər, obrazlar Azərbaycan türkünün zəngin və ulu tarixi keçmişə, mədəni dəyərlərə bağlılığı, dilinin bulaq gözündən gələn damla kimi büllurluğu, fars hakim dairələrinin Azərbaycan türkünə istehza və həqarətlə yanaşması və s. kimi məsələlərə orijinal müəllifinin münasibətinin tərcümə mətnində saxlanılması əslində uğurlu məqam kimi qiymətləndirilməlidir.

Eyni zamanda söyləməyə ehtiyac vardır ki, Səhəndin "Dədəmin kitabı" epik nümunəsini tərcümə etmək o qədər də asan məşğuliyyət deyildir. Çünki onun əsərində yer almış çoxsaylı leksik konstruksiyalar, folklor və dastan ünsürlərinə bürünmüş ifadələr, ekvivalentsiz leksika, idiomlar, atalar sözü və zərbi məsələlərlə süslənmişdir ki, burada müəllifin fərdi üslub kontekstini orijinalın hər bir misrasından gələn emosional təsiri, qazax xalqının qavrayışına yaxın bir dillə ötürüb keyfiyyətli tərcümə mətni ortaya çıxarmaq heç də asan deyildir.

"Dədəmin kitabı" Amantay Şərifin tərcüməsində orijinalda olduğu kimi "Duxa Qoca oğlu Dəli Domrul" ("Дука Кожа улы Делі Домрул") boyu ilə başlanır.

Amantayın tərcüməsinin ən mühüm tərəfi, fikrimizcə, ondan ibarətdir ki, o, "Atamın kitabı"nı nəinki poetik baxımdan, həm də struktur-kompozisiya nöqteyi nəzərdən adekvat yaratmağa səy göstərir. Azərbaycan tərcümə nəzəriyyəçisi İslam Ağakərimova görə poetik tərcümənin digər tərcümə janrlarından fərqi onun daha böyük məsuliyyət və yaradıcılıq imkanlarını özündə ehtiva etməsidir. Poetik janrların tərcüməsinin çətinliyi şeir janrının özünün milli-spesifik xüsusiyyətlərinə görə fərqlənir ki, orada ritm,qafiyə, ölçü və digər evfonik vasitələr təkrarolunmaz xarakterə malikdir [2, 247]. Nəzəriyyəçinin bu yanaşmasını Amantay Şərifin tərcüməsi üzərində illüstrasiya edək:

Gecənin qoynunda vüqarlı dağlar,
Sanki əbədi bir yuxuya batmış.
Dərələr, təpələr, meşələr, bağlar,
Dünyanın xeyrini, şərini atmış [10, 19].

Orijinalın nümunə gətirdiyimiz bəndinə Amantay Şərifin tərcüməsində nəzər salaq:

Тун койнында мангаз таулар мулгіген,
Мэнги уйкыга кететіндей көз іліп.
Сай мен төбе, орман мен бак тур кілен,
Дуненін кайыр, зарын сезінін. [5, б. 51].

Amantayın tərcüməsini burada biz orijinal mətninə uyğun çevirmə kimi dəyərləndiririk. Çünki mətndə mütərcim orijinalın poetikasını, onun leksik-semantik məzmununu saxlamaqla, həm də Azərbaycan xalq milli ənənələrini qorumağa müvəffəq olur. "Dədəmin kitabı"nın qazax dilinə tərcüməsində mütərcim nəinki mətni doğma dildə mümkün qədər poetik səsləndirməyə çalışır, həm də müəllifin özünün mətnə münasibətini incələyə bilir. Belə olduğu halda mütərcim tərcümə mətnində, belə demək mümkünsə, irəli düşmək baradə düşünmür, o, orijinalı olduğu kimi təqdim etməyi daha üstün tutur.

Bundan başqa mütərcim Səhəndin dastanının tərcüməsinə dialektik mövqedən yanaşır. Belə tərcümə isə, fikrimizcə, özünü yetərincə doğruldur. Çünki xeyli mütərcimlər poetik mətnlərin tərcüməsində "qızıl orta" axtardığı halda Amantay Şərif realist tərcümə texnikasını daha üstün mövqedə qoyur.

Belə olduqda sanki N.S.Qumilyovun "Tərcüməçi üçün doqquz nəsihət" məqaləsindəki prinsiplər yada düşür. Qumilyov üçün digər maraqlı məsələlərlə yanaşı, onun baxışında mütərcimin özü şair, tədqiqatçı və tənqidçi olmasını orijinala analitik və yaradıcı yanaşmanı ön plana çəkirdi. Bununla bərabər, Qumilyov həm də iki poetik fərdiyyətin ideal şəkildə bir-biri ilə üst-üstə düşməsini arzulayırdı. O, hər hansı intuisiyanı inkar etməməklə, həm də mütərcimdən fərqli digər dildə yazıb yaradan şairin poetik dünyasına səyahət edə bilməsini və şairin yaratdığı poetik aləmin tənqidi müstəvidə yaradıla bilməsini irəli sürürdü [8].

Azərbaycan və qazax dilinin poetik sistemi və strukturu müəyyən qədər uyğun olmasına baxmayaraq, həm də aralarında xeyli dərəcədə fərqlər olan bu dillərdə tərcümənin çətinliyi və mürəkkəbliyi onda ortaya çıxır ki, qarşılaşdırıcı-müqayisəli təhlil zamanı ayrı-ayrı dildə onlardan hər biri, xalq həyatının müxtəlif tərəfləri ilə bağlı olan məqamları müəyyən semantikanın köməyi ilə ifadə edir. Çünki Azərbaycan və qazax dillərində morfoloji və sintaktik quruluşa görə səslər də özünəməxsus şəkildə təşkil olunmuşdur:

Həqiqət min üzlü olsa da əgər,
Gedəmməz gündə min oynaşa-ərə.
Özün Haqq bilməyən yoxsa bir nəfər,
Bir suzmanı verməz vədə min yerə.

Həqiqət dediyin divanxanada,
"Haqq" deyə qoyulan bir qərar deyil,
Yaxud "hu çağıran Əli Mövcudun,
Sərxoş başındakı xülyalar deyil [10, 20].

Amantay Şərif isə bu bəndləri qazax oxucusuna aşağıdakı kimi çatdırır:

Акікатта мын жуз болсын, сірə да
Мын ашына – ерге кетпес бір кунде.
Хакты өзінен танымаса бір адам,
Бир шешім жок мын уәде сургінде.

Акикат – бул жиынында көп журттын,
«Хак» делініп бекіген бір каулы емес!
Яки «ху» деп шакырган Әли Мәвжудтын
Масан басы киялындай даулы емес [5, б. 52].

Amantay bəyin tərcümələrini orijinalla tutuşdurduqda görürük ki, mütərcim heç də bütün hallarda Azərbaycan dilindəki ifadələrin qazax dilindəki eyni ifadələrilə əvəz olunmasına can atmır. Bir qədər konkretləşdirmiş olsaq, o, müəllifin təsvir etdiyi reallığa məna və üslubi yükün qorunması ilə yiyələnməyi hər şeydən üstün tutur. Burada o, bir tərəfdən, ifadənin aparıcı məzmununu, onun əlavə məna yükünü, ifadələr arasındakı fərqli emosional-ekspressiv mahiyyəti nəzərə almaqla tərcümə edir. Başqa sözlə desək, o, heç də bütün hallarda ekvivalenti olmayan ifadələrin miskin təsiri altında qalmır. Və eyni zamanda Amantay qardaşımız Azərbaycan dilindən çoxsaylı nümunələri qazax dilinə tərcümə etdiyindən, həm də yaxşı bilir ki, hər iki dil arasında poetik mətnlərin tərcüməsi zamanı yüz faizlik ekvivalentlik axtarmaq da, qaranlıq otaqda qara pişiyin axtarılmasına bərabər ola bilərdi.

"Dədəmin kitabı"nın "Dirsə xan oğlu Buğac" fəslindən başlanğıc bəndlərinə yenə də orijinalda və tərcümədə nəzər yetirək:

Karvan qalxır yuxusundan,
Yükün çatır, düşür yola,
Kim çatacaq məqsədinə,
Kim yorulub yolda qala.

Karvanımın günəş ilən
Qırılmayan ülfəti var,
O batarkən bu da yatar,
O çıxarkən bu da çıxar [10, 44].

Amantay Şərif eyni bəndləri aşağıdakı kimi verir:

Керуен ояу, жүріп өтсе,
Жүргін артып, сапар шегіп
Мақсатына бірі жетсе.
Бірі жолда жатар шөгіп.

Кемімес Кун, зырлап уақыт,
Керуенімнін сырласы бар
Ол батқанда булда батып,
Ол шыққанда бул да шыгар [5, б. 78].

Bəzi müəlliflər belə bir fikirdə israrlıdırlar ki, poetik mətnlərdə orjinal poetik mətnin mərkəzində oturan oxucuya verdiyi estetik-ekspressiv elementləri qətiyyən vermək mümkün deyildir, yaxud orijinalın metrik ölçülərini tərcümədə saxlamaq da səmərəli görünüşdən və qavrayışdan kənardır. Amantayın nümunə kimi təqdim etdiyimiz tərcümə parçasında isə biz həmin tezisin dağıdıldığının şahidi oluruq. Maraqlıdır ki, bu nümunədə nəinki şeir parçalarının ritmi, instrumentovkası, həm də qafiyəsi orjinaldakına uyğun yaradılmışdır. Bundan başqa mətnin leksik komponentlərində də tam uyğunluq nəzərə çarpır. Orjinaldan "karvan", "yuxudan qalxmaq", "yük", "səfər", "məqsədə çatmaq", "o batarkən bu da batar", "o çıxarkən bu da çıxar" kimi ifadələr müvafiq olaraq "Керуен ояу", "жіп", "сапар", "Мақсатына бірі жетсе", "Ол батқанда булда батып", "Ол шыққанда бул да шыгар" və s. kimi verilmişdir.

Məlum olduğu kimi, poetik mətndə ölçü və qafiyə ilə yanaşı, həm də digər elementlər fonetik xüsusiyyətlərlə müşayiət olunur ki, bu da "şeirin musiqililiyi" kimi nəzərdən keçirilə bilər. Bu məqsədlə müəllif çoxsaylı alliterasiyalar, assonanslar, səs təqlidi və s. kimi şeirin emosional-ekspressiv yükünü nəzərə çarpdıran elementlərdən istifadə edə bilər. Qeyd etdiyimiz bu tipli ifadəli vasitələrdən istifadə mətnin özünəxas cəhəti kimi onun yenilik dərəcəsini, obrazların təzə-tərliyini

müəllifin fərdi üslubunun tərcümə mətnində verilməsinin zəruriliyi bəhs etdiyimiz şairin yaradıcılığının digərlərinə nisbətən fərqli xüsusiyyətlərini ortaya çıxarır. Poetik tərcümənin forması ilə bağlı bir sıra məsələlərin nəsr tərcüməsindən fərqi müəllifin ləngərli ifadələrin tərcümə dilində saxlanılmasını zəruriləşdirir.

Orijinalla tərcümənin tutuşdurulmasını "Dədəmin kitabı"nın digər səhifə və fəsillərində də izləmək maraqlıdır. Bunu "Bəkil oğlu Əmran"nın dördüncü və beşinci bəndlərində təqdim edək:

Necə canlanmasın, necə daşmasın,
Necə özlüyündən çıxmasın insan?
Necə bu dünyaya gəlib-gedim mən,
Baş açа bilməyim nə olduğundan?!

Qarşımda axırı görünməz bir yol,
Baxıram baxdıqca gözüm qaralır.
Duyub düşündükcə, fikrə daldıqca.
Fəlsəfə mat qalır, məntiq koralır [10, 162].

Amantay bu bəndləri də xüsusi bir ruh yüksəkliyi və fəlsəfi-estetik baxışlarla qazaxcaya tərcümə edir:

Калайша толкымай, калайша тогілимей,
Калайша адам боп өзіме көнермін?
Келгеним, кеткенім дуниеден көрінбей,
Түсіне алмаймын кім болдым, не болдым?!

Алдымда шет-шегі беймелім бір дангыл,
Карасам, кетеді жанарым булдырап.
Сезініп, ойланып, сыр туйсем – курдан-кур
Фәлсәфә мат кылар, кисаным кулдырап [5, б. 165].

Burada Amantayın tərcüməsində ona müəyyən dərəcədə zəruri olan qədər kommunikativ kompetensiyanın kömək etdiyini qeyd etməliyik. Bu parçada mütərcimin bəzi yerlərdə zəruri transformasiyalara getməsi əsasən tərcümə dilində olan kənarlaşmalara görə olmuşdur. Buradakı leksik transformasiyalara modulyasiya, konkretləşdirmə, transkripsiya və transliterasiyalar da aid edilə bilər. Mütərcim qarşısında ortaya gələ biləsi çətinliklərə baxmadan o, bütün hallarda orijinal mətndən çıxış edir. O, nəinki konkret olaraq göstərdiyimiz tərcümədə, həm də eyni zamanda bütün tərcümə prosesində Azərbaycan şeirində olan katrenləri (bəndləri) müvafiq bölgülərə bölür, ayrı-ayrı katrenləri tərcümə edir, orijinalla müqayisə edir, qazax dilində səsləndirir, nəyi isə yenidən düzəldir, nəyi isə islah edir və beləcə orijinal mətn üzərində işini uğurla davam etdirir.

Bununla yanaşı, mütərcim üçün ən vacibi orijinala sadiq olub, onun ruhundakı fəlsəfəni, düşüncə tərzini, Səhəndin təfəkküründün dərinliyini, müəllifin hiss və həyəcanını yaşamaq və yaşatmaq istəyi üstünlük təşkil edir.

Tərcümə nəzəriyyəçilərindən biri S.F.Qonçarenko poetik mətnin informasiya imkanlarının iki alt növə – məna və estetikə bölgüsünü aparmışdır [7, 107]. İ.P.Qalperinin terminologiyasında isə məna informasiyası öz növbəsində faktual və konseptolojiyə bölünür [6, 27]. Burada faktoloji hər hansı fakt, yaxud hadisələrlə bağlı informasiyadırsa və o, hər hansı real, yaxud xülya aləmini əhatə edirsə, konseptual informasiyada müəllifin ətraf aləmdə baş verənlərlə bağlı qənaətləri əks olunur. Poeziyada əksər hallarda estetik informasiya faktual və konseptualı üstələyir. Poeziya mətnindəki hər bir məhfumdakı nitq elementi bir-biri ilə qarşılıqlı əlaqədə olub, həm üfiqi, həm də şaquli vəziyyətdə qarşılıqlı əlaqəyə girib əlavə məna kəsb edir. Həm də poetik mətndə səs məzmunun mühüm hissəsi kimi çıxış etməklə məkanı əks etdirir, eyni zamanda səs həm də musiqi atmosferi

yaradır. O müəyyən assosiasiya ortaya çıxarmaqla əsərə müəyyən əhval-ruhiyyə gətirir. Burada fonetik formanın mühüm elementləri kimi daxili və zahiri qafiyə, qafiyənin sırası, ardıcıllığı, onlar arasındakı münasibətlər, alliterasiya, assonans, fonetik anafora və epifora, paronimiya, səslər, təkrirlər, səs təqlidi və s. yer alır.

Bütün bunlarla bağlı ona görə bəhs edirik ki, Amantay Şərifin Səhəndin "Dədəmin kitabı"nın tərcüməsində poetik mətnin sadaladığımız mühüm komponentlərinin qazax oxucusuna necə təqdim edildiyini mahiyyətincə vurğulayaq.

Qazax mütərciminin işinin digər bir müsbət tərəfini də burada qeyd etməmək doğru olmazdı. Səhənd Cənubi Azərbaycan poeziyamızın nümayəndəsi olduğundan poemanın mətnində nəinki qazax, həm də Şimali Azərbaycan oxucusuna məlum olmayan çoxsaylı ifadələr və anlayışlar təqdim etmişdir. Bu ifadələrin izahını müəllif hər səhifənin aşağısında təqdim edir. Amantay həmin anlayışların tərcüməsini hər fəslin sonunda ayrıca olaraq "İzahlar" ("Түсіндірмелер") bəhsində qazax oxucusuna ötürür. Beləliklə, Səhəndin mətnindəki "mərmuz", "ibhəm", "məbhut", "Əli Mövcud", "şəbəh", "fəsahət", "mərə", "əyaq", "Çöngə", "Cərəs", "Təfərrücə", "Atropat", "Cəlaləddin Mövləvi", "Zeynəb paşa", "ən qərib", "Amənna və səddəqna", "Pusuz", "Tibir", "Sasɪ", "Mərz", "Xəftan", "Təməddin", "Gəndab", "Tomə", "Üstün nəcad", "Qaytaban", "Məad" və s. kimi ifadələr tərcümədə hər fəslin sonunda 77, 164, 197, 233, 264, 293, 335, 356, 411, 468-ci kimi səhifələrdə izahlı şəkildə təqdim edilmişdir.

Səhənd "Dədəmin kitabı" epik poemasını çeşidli şeir metirkasında qələmə almışdır. Burada 7 hecalıq, 8 hecalıq, 11 hecalıq, 12 hecalıq, 16 hecalıq və eyni zamanda xeyli hallarda strofaları pozulmaqla verildiyindən, Amantay Şərif də orijinal mətnin struktur-kompozisiya özəlliyini orijinaldakına müvafiq olaraq qorumağa çalışmışdır.

Beləliklə, Amatay Şərifin Səhəndin "Dədəmin kitabı" epik dastan-mənzuməsinin müxtəlif səviyyələrdə tərcümə strategiyasını nəzərdən keçirdikdə görə bilərik ki, mütərcim özünün yaradıcılıq arsenalında olan bütün bədii-poetik və nəzəri-praktik, fəlsəfi-estetik imkanlardan yararlanmaqla adekvat tərcümə nümunəsinin ortaya çıxmasını təmin edir. O, Səhəndin təhlilə cəlb etdiyimiz əsərində yer almış əksər tarixi, fəlsəfi, folklor, mədəni-mənəvi örnəklərinin qorunub saxlanılmasına öz yaradıcılıq potensialını yetərincə sərf etmişdir. Eyni zamanda Amantay Şərifin tərcüməsi sayəsində daha bir istedadlı Azərbaycan şairinin yaradıcılığının qazax oxucusunun mənəvi-estetik tələblərinin ödənilməsinə öz töhfəsini verəcəyinə bizi əmin edir.

Nəticə. Beləliklə, Bulud Qaracorlu Səhəndin "Dədəmin kitabı"nın qazax dilinə tərcümə edilməsindən bəhs edərkən biz həm də filologiya elmləri doktoru, professor, Qazaxıstan Milli Elmlər Akademiyasının müxbir üzvü Amantay Şərifin, bir tərəfdən, nəzəri-ədəbi fəaliyyətinə nəzər salmış, əsərlərinin məzmun və konseptual problemləri özündə necə əks etdirdiyini diqqət mərkəzinə çəkmiş, Azərbaycan dilindən etdiyi digər müəlliflərdən olan tərcümələrdən eksklüziv bəhs etmiş, digər tərəfdən, B.Q.Səhəndin "Dədəmin kitabı"nın qazax dilinə adekvat tərcüməyə gətirib çıxaran başlıca səbəblərini göstərmişik. Eyni zamanda orijinalın struktur-kompozisiya və məzmun-ideya tərəflərinin tərcümədə nə dərəcədə uğurla alınması üzərində dayanmışıq. Mütəxəssislərə digər bir maraqlı məlumatı da çatdıraq ki, Amantay Şərif hal-hazırda Azərbaycan müəlliflərinin qazax dilinə tərcüməsi üzərində intensiv işləməkdədir.

ƏDƏBİYYAT

1. Abay Kunanbayevin 175-illiyinə həsr olunmuş Beynəlxalq Konfrans. Bakı, Bakı Dövlət Universiteti. 9 yanvar 2020
2. Агакеримов И. Жанровые проблемы текста перевода. Баку, Мутарджим 2023, с. 247 (272 с).
3. Azərbaycan ədəbiyyatı antologiyası. Astana, Гылым, 2018, s. 356-365
4. Beynəlxalq türk kitabı və ədəbiyyatı festivalı çərçivəsində Elmi konfrans. Bakı, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. 26 may, 2022

5. Булут Карачорлу Сəһəнд. Атамнын китабы. Аударган: Амантай Шəрип // Мухаммед Хусен Шахрияр. Булут Карачорлу Сəһəнд. Сагыныш саздары. Дастандар. Астана: Туркі Академиясы, 2024, б. 50-469
6. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М., 2006, с. 27 (144 с.).
7. Гончаренко С.Ф. Поэтический перевод и перевод поэзии: константы и вариантивность // Тетради переводчика. Науч.-теорет. сбор. Вып. 24. Под.ред. С.Ф.Гончаренко. М., МГЛУ, 1999, с. 107 (с. 107-122).
8. Гумилев Н.С. Письма о русской поэзии // Г.М.Фридлендер, Р.Д.Тименчика // Переводы стихотвореные. М., Современииник, 1990
9. Мустафаев Ш. Англы сöз // Сагыныш саздары (Дастандар). Астана; Türkі Академиясы, 2024, б. 3-4
10. Səhənd. Dədəmin kitabı (Poemalar silsiləsi. Bakı, Nurlan, 2015, 440 s.
11. Süleymanoğlu F.Səhəndin şah əsəri // Səhənd. Dədəmin kitabı. (Poemalar silsiləsi). Bakı, "Nurlar", 2015, s. 3-16
12. Türki халıktarынын авторлык ауызша поэзиясы. Алматы; Arna – в., 2024-232 б.
13. Туркі халıktarынын авторлык ауызша поезиясы және әдебиетаралалык байланыс" (Алматы: Arna-в, 2024, 432 s.
14. Шарип А. Творчество Бахтияра Вагабзаде и казахская поэзия XX века: идейно-тематические и художественные параллели) // I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları. Qafqaz Universiteti, 13-15 dekabr, 2012. Bakı, 2012, s. 95-99
15. Шарип А. Гусейн Джавидтін романтизми және XX гасыр басындагы казак әдебиеті: рухани ізденістер мен адамгериілік мураттар (салыстырмалы талдау) // Türk dünyasını işıqlandıranlar: Məmməd Akif Ərsoy, Hüseyn Cavid. Beynəlxalq konfransın materialları. Qafqaz Universiteti, 16-18 may, 2013 il. Bakı, 2013, s. 28-35
16. Шарип А. Хасанбек Зәрдабидын тәжірибесі: идеялык, және рухани сабактастык» // Журналистика мен букаралык коммуникацияның özекті меселелері» Республикалык гылыми-тежірибелік конференциясы. 25 сентябрь 2015. Астана, 2015, б.151-162
17. Шарип А. Хусейін Джавид және XX гасыр басындагы казак поэзиясы: рухани ізденістер мен көркемдік еректеліктер». Л.Н.Гумилев атындагы Еуразия улттык университетінін хабаршысы. Филология сериясы. 2018, № 1 (122), б. 151-162
18. Шарип А. Азербайджанский литературовед об Ауэзове (Әзербайжан әдебиеттанушысы Әуезов жайында»). Тигкіс Studies journal. 2022, № 3, б. 141-146
19. Шахрияр, М.Х. Хайдарбабага сәлем. Сагыныш саздары. Дастандар. Астана: Türkі Академиясы, 2024, б. 13-34.

Daxil oldu: 05.03.2025
Qəbul edildi: 07.04.2025

ЛИНГВОПОЭТИКА НЕКОТОРЫХ СТИХОВ В «ДИВАН ЛУГАТ АТ-ТУРК» М.КАШКАРИ

DOI: https://doi.org/10.36719/3005-3137/1/87-94

Айтмамат Оморов
Кандидат филологических наук, доцент
Жалал-Абадский государственный
